AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

# İQTİSADİ NƏZƏRİYYƏ: MİKROİQTİSADİYYAT

(metodiki vəsait)

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Elmi-Metodik Şurasının
«________________» bölməsinin
«____» 2008-ci il tarixli iclasının
qərarı ilə təsdiq edilmişdir
( Protokol №    )

BAKI - 2008

MUHASIBAT.AZ

**Tərtib edən:** **İqtisad elmləri doktoru Manafov Qabil Nadir oğlu**

**Elmi redaktor:** **iqtisad elmləri doktoru, professor Nəsrullayev Fikrət Ağagül oğlu**

**Rəyçilər :** **iqtisad elmləri doktoru, professor Meybullayev Məmməd Həsən Xanlar oğlu.**
**İqtisad elmləri namizədi, dosent Əlləzov Qəzənfər Seyfəddin oğlu.**

## XÜLASƏ

Tədris-metodiki vəsait iqtisadi nəzəriyyənin ümumi əsaslarını və onun mikroiqtisadiyyat bölməsinin mövzularını özündə birləşdirir və ADİU-da tədris edilən eyni adlı fənnin proqramı əsasında tərtib edilmişdir. Tədris-metodiki vəsaitdə əks olunmuş mövzular məntiqi sxemlər, qrafiklər, cədvəllər şəklində təqdim edilmişdir, habelə bir sıra vacib iqtisadi anlayışların məzmunu haqqında müxtəlif yanaşmalar açıqlanmışdır.

Tədris-metodiki vəsait iqtisadi nəzəriyyə (mikroiqtisadiyyat) fənni üzrə mövcud olan dərsliklər və dərs vəsaitləri ilə birgə istifadə üçün köməkçi material kimi işlənib hazırlanmışdır və həmin fənnin müasir üsullarla - interaktiv metodlarla tələbələrə aşılanması üçün əhəmiyyət kəsb edə bilər.

Tədris-metodiki vəsait ali təhsilin bakalavr və magistr pillələrində təhsil alanlar, aspirant və dissertantlar, müəllimlər, həmçinin mikroiqtisadiyyatın problemləri ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur



MUHASIBAT.AZ

# MÜQƏDDİMƏ

İqtisadi sistemin transformasiyası və bazar münasibətləri əsasında Milli iqtisadiyyatın formalaşdırılması zərurəti qarşıya bir çox problemlər və vəzifələr çıxarmış, onların həlli üçün iqtisad elminin nəzəri-metodoloji əsasını təşkil edən iqtisadi nəzəriyyənin rolunu, onun elmi əsaslar üzərində, yeni tələblər baxımından, müasir üsullarla tədrisinin əhəmiyyətini son dərəcə aktuallaşdırmışdır. Belə ki, bu gün cəmiyyətin ictimai-iqtisadi həyatında mövcud olan hadisə və proseslərin düzgün dərk olunması, sosial-iqtisadi inkişafın meyllərinin və perspektivlərinin müəyyənləşdirilməsi, iqtisadi fəaliyyətin səmərəli forma və metodlarının işlənib hazırlanması iqtisadi nəzəriyyənin gələcək yüksək ixtisaslı iqtisadçı kadrlar tərəfindən hərtərəfli mənimsənilməsini, onlarda bazar iqtisadiyyatına xas olan iqtisadi təfəkkürün formalaşmasını tələb edir. Bu zaman nəzərə almaq lazımdır ki, iqtisadi nəzəriyyə üzrə dərslərin hər zaman, daim sırf abstrakt, real təcrübədən kənar nəzəri müddəalar üzərində qurulması bir çox hallarda öz-özlüyündə yaradıcı və dinamik xarakter daşıyan bu elmin sxolastikaya çevrilməsi ilə nəticələnə bilər ki, bu da tədrisin metodikasının daim təkmilləşdirilməsini, mühazirə və məşğələ dərslərində müasir, nəzəri və praktiki xarakterli üsulların, o cümlədən interaktiv metodların qarşılıqlı şəkildə əlaqələndirilməsini tələb edir və iqtisadi nəzəriyyənin mənimsənilməsində əyaniliyin, müasirliliyin və səmərənin təmin olunmasına imkan verir.

Deyilənlərdən çıxış edərək tədris-metodiki vəsaitdə iqtisadi nəzəriyyənin mikroiqtisadiyyat bölməsi formal şəkildə qurulmuş məntiqi sxemlər, bəzi əyani qrafiklər və cədvəllər əsasında təqdim edilmiş, bir sıra mövzular üzrə zəruri iqtisadi anlayışların məzmunu əks olunmuşdur.

İqtisadi nəzəriyyə (mikroqtisadiyyat) fənni üzrə xüsusən mühazirə dərslərində istifadə eilən dərsliklərə və dərs vəsaitlərinə əlavə, köməkçi material kimi çıxış edə biləcək bu tədris metodiki vəsait ADİU-da tədris edilən eyni adlı fənnin tədris proqramına uyğun olaraq tərtib edilmişdir.

Fikrimizcə, mikroiqtisadiyyatın tədrisində sxemlərdən, qrafiklərdən, cədvəllərdən istifadə olunması iqtisadi nəzəriyyənin həmin bölməsi haqqında tələbələrdə daha geniş



MUHASIBAT.AZ

və düzgün biliklərin formalaşmasına, bazar iqtisadiyyatının inkişaf qanunauyğunluqları, mexanizmləri və xüsusiyyətləri haqqında tədris materiallarının onlar tərəfindən əyani şəkildə mənimsənilməsinə kömək edə bilər.


MUHASIBAT.AZ

# I. İQTİSADİ NƏZƏRİYYƏNİN PREDMETİ VƏ METODU.






MUHASIBAT.AZ




**İQTİSAD ELMLƏRİNİN TƏSNİFATI**



MUHASIBAT.AZ






MUHASIBAT.AZ

| İQTİSADİ NƏZƏRİYYƏNİN (İ/N) MAHİYYƏTİ İLƏ BAĞLI TƏRİFLƏR |
|---|
| |
| İ/n məhdud resurslardan cəmiyyətin sonsuz tələbatlarını daha geniş şəkildə ödənilməsinə imkan verən tərzdə və səmərəli istifadəsi problemini öyrənən ictimai elmdir |
| |
| İ/n məhdud resurslarla nemətlərin və xidmətlərin istehsalı, bölgüsü və istifadəsi şəraitində insanların davranışlarını öyrənir |
| |
| İ/n insanların daim artan maddi tələbatlarının ödənilməsi məqsədi ilə məhdud resurslar-dan səmərəli istifadə və onların səmərəli idarə edilməsi problemlərini öyrənir |
| |
| İ/n seçim elmidir. O, insanlar tərəfindən özlərinin sonsuz tələbatlarını ödəmək məqsədi ilə müxtəlif məhsulların istehsalı, bölcüsü, mübadiləsi və istehlakı prosesində alternativ şəkildə tətbiq oluna bilən məhdud resurslardan necə istifadə edilməsi üzrə necə seçim edildiyini öyrənir. |
| |
| İ/n maddi nemətlərin və xidmətlərin istehsalı, bölgüsü, mübadiləsi və istifadəsi prosesində cəmiyyətdə yaranan məcmu iqtisadi münasibətləri öyrənir. |
| |
| İ/n insanlar arasında yaranan iqtisadi əlaqə və münasibətləri qarşılıqlı əlaqə və asılılıq halında, habelə onların inkişaf qanunlarını öyrənən ictimai elmdir. |
| |
| İ/n maddi nemətlərin istehsalı, bölgüsü. mübadiləsi və istehlakı prosesində insanların təsərrüfat fəaliyyətini və təsərrüfat əlaqələrini öyrənən elmdir. |



MUHASIBAT.AZ

| BƏZİ İQTİSADİ MƏKTƏBLƏR İQTİSADİ NƏZƏRİYYƏNİN PREDMETİNDƏ SƏRVƏT HAQQINDA. | | | |
|---|---|---|---|
| İqtisadi məktəb | Tədqiqat predmeti | Yarandığı sahə | Forması |
| 1. Merkantilizm | Sərvət | Tədavül sferası | Qiymətli metallar və pul |
| 2. Fiziokratlar | Milli sərvət | Aqrar sfera | Kənd təsərrüfatı istehsalının nəticəsi |
| 3. Klassik məktəb | Milli sərvətin istehsa-lı, yığımı, bölüşdürül-məsi | Bütövlükdə maddi istehsal sferası | İstehsal olunan bütün məhsullar |
| 4. Müasir iqtisadi məktəblər | Milli sərvət | İstehsal və xidmət | İstehsal nəticəsi olan məhsullar, xidmətlər, habelə insan, informasiya |



MUHASIBAT.AZ






MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## İQTİSADİ NƏZƏRİYYƏNİN TƏMƏL PRİNSİPLƏRİ

- Nəzəriyyə və praktikanın vəhdəti
- Mikro və makro təhlilin vəhdəti
- Müxtəlif tarixi şəraitlərdə fəaliyyət göstərən iqtisadiyyat qanunlarının fərqliliyi

## İQTİSADİ NƏZƏRİYYƏNİN FUNKSİYALARI

**Dərkedici (nəzəri)**

İqtisadi reallığı, obyektiv iqtisadi qanunların fəaliyyət mexanizmini, iqtisadi həyatın bütün səviyyələrində baş verən hadisə və prosesləri dərk, tədqiq və izah etməyə imkan verir

**Praktiki (dəyişdirici)**

Mövcud iqtisadi reallığı yaxşılaşdırmağa şərait yaradır, təsərrüfat təcrübəsinin, dövlətin iqtisadi siyasətinin prinsiplərini və əsas istiqamətlərini elmi cəhətdən əsaslandırır və praktikada istifadə edir

**Metodoloji**

İqtisadi hadisə və proseslərin məntiqini, predmetini, prinsiplərini, iqtisad elmlərinin tədqiqat metodlarını, vasitələrini və elmi aparatını müəyyən edir, onlar üçün nəzəri metodoloji əsas (baza) rolunu oynayır

**İdeoloji**

İnsanlara, cəmiyyətə, iqtisadi subyektlərə elmi dünyagörüşü aşılayır, onlarda iqtisadi reallığa, mövcud iqtisadi sistemin tələblərinə adekvat təfəkkür tərzi formalaşdırır.


MUHASIBAT.AZ





MUHASIBAT.AZ






MUHASIBAT.AZ

| İQTİSADİ NƏZƏRİYYƏNİN TƏDQİQAT METODLARININ MƏZMUNU | |
|---|---|
| Metodun adı | Metodun məzmunu |
| 1. Təhlil və sintez | Tədqiqat obyektinin müxtəlif hissələrə parçalanaraq təhlili əsasında onun sintez edilməsi - bütövlükdə öyrənilməsi. |
| 2. İnduksiya və deduksiya | İnduksiya- iqtisadi faktların tədqiqi əsasında nəzəri ümumiləşdirmələrin aparılması (faktlardan nəzəriyyəyə doğru hərəkət); deduksiya- bütövlükdə nəzəriyyə və ya ayrı-ayrı nəzəri müddəalar, prinsiplər əsasında faktların müəyyən edilməsi, qurulması, əsaslandırılması (nəzəriyyədən faktlara doğru hərəkət). |
| 3. Elmi abstraksiya | Tədqiqat obyektindən təsadüfi, keçici olanların sərf nəzər edilməsi və tədqiqatın daimi, sabit, tipik olan, onun mahiyyətini əks etdirən hadisə və proseslər üzərində cəmləşdirilməsi. |
| 4. Abstrakdan konkretliyə doğru hərəkət | Əvvəlcə tədqiqiat obyektinin bütövlükdə mahiyyətinin,inkişaf qanununauyğunlarının, təzahür formalarının və daxili ziddiyyətlərinin metodoloji aspektdən aşkar edilməsi, sonra isə iqtisadi qanunlar və iqtisadi kateqoriyalar sistemində tədqiqat obyektinin konkret formasının və inkişaf xüsusiyyətlərinin əks etdirilməsi. |
| 5. İqtisadi modelləşdirmə (iqtisadi-riyazi, məntiqi, qrafik, statik, dinamik, açıq, qapalı və s. iqtisadi modellər) | İqtisadi reallığın sadələşdirlmiş, formal şəkildə, konkret riyazi göstəricilər, qrafiklər və s. şəklində şərh edilməsi və araşdırılması. |



MUHASIBAT.AZ

| | |
|---|---|
| 6. Dialektika | İqtisadi hadisə və proseslərin daimi hərəkətdə, dəyişmədə, inkişafda, digərləri ilə qarşılıqlı əlaqədə, cəmiyyətin maddi həyatının ilkinliyi prinsipi daxilində tədqiq olunması. |
| 7. Qrafik təsvir | İqtisadi hadisə və proseslər arasında bu və ya digər asılılıqların və əlaqələrin əyani şəkildə, qrafiklərdən, sxemlərdən, cədvəllərdən, diaqramlardan və s. istifadə olunması ilə araşdırılması. |
| 8. Funksional təhlil | Bir çıra hadisələrin müstəqil, digərlərinin isə asılı, törəmə dəyişənlər kimi öyrənilməsi. |
| 9. Son hədd təhlili | Son hədd göstəricilərinin dinamik halda, artım, azalma, dəyişmə şəraitində öyrənilməsi. |
| 10. Eksperiment | İqtisadi hadisə və proseslərin xüsusi, süni şəkildə yaradılmış,konkret dövr üçün müəyyən edilmiş və nəzarət olunan şəraitdə tədqiq olunması. |
| 11. Tarixiliyin və məntiqliyinin vəhdəti | Tarixi metod empirik materialları toplayır, hazırlayır və müəyyən tarixi mərhələnin məntiqi ilə əlaqələndirir; məntiqi metod isə predmetin məntiqi mahiyyətini və məzmununu müəyyən tarixi zamanda, konkret tarixi iqtisadi münasibətlər sistemində öyrənir. Tarixi olan məntiqidir, belə ki, predmetin inkişaf məntiqini konkret tarixi hadisələr formasında və sistemində tədqiq edir; məntiqi olan tarixidir, belə ki, predmeti hər hansı bir təsadüfü tarixi formalardan kənarda öyrənir. |
| 12. Balans metodu | İctimai tələbatın həcminin və quruluşunun mövcud maddi, əmək, maliyyə resursları ilə əlaqəli şəkildə uzlaşdırılmasını, balansın bütün bölmələri və göstəricilərinin qarşılıqlı əlaqələndirilməsini təmin edir. |
| 13. Normativ təhlil | İqitsadi hadisə və proseslərin real, faktiki vəziyyətini göstərir. |
| 14. Pozitiv təhlil | İqtisadi hadisə və proseslərin gələcəkdə necə dəyişə biləcəyi üzrə elmi mübahisə və yanaşmaları öyrənir. |



MUHASIBAT.AZ






MUHASIBAT.AZ

# 2. İSTEHSAL NƏZƏRİYYƏSİ. İCTİMAİ İSTEHSAL – CƏMİYYƏTİN İNKİŞAFININ ƏSASIDIR






MUHASIBAT.AZ









MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## İQTİSADİ RESURSLARIN MƏZMUNU

| | |
|---|---|
| Təbii resurslar | Ətraf mühitin istehsal prosesində istifadə olunan mühüm komponentləri, insanın və cəmiyyətin mövcuduğu üçün zəruri olan təbii şərait. |
| Maddi resurslar | İstehsal nəticəsi olan bütün istehsal vasitələri (əmək cisimləri, əmək alət və vasitələri). |
| Əmək resursları | Əmək yaşında, əmək qabiliyyətli olan iş qüvvəsi |
| Maliyyə resursları | İstehsal fəaliyyətini həyata keçirmək üçün zəruri olan pul vəsaitləri |
| İnformasiya resursları | İstehsal prosesini həyata keçirmək və informasiya texnologiyası vasitəsilə onu idarə etmək üçün zəruri olan məlumatlar. |


MUHASIBAT.AZ




MUHASIBAT.AZ


İSTEHSALIN SƏVİYYƏLƏRİ
İstehsalın ixtisaslaşması
İstehsalın kooperasiyalaşması
İstehsalın ictimailəşməsi
İstehsalın təmərküzləşməsi
İstehsalın mərkəzləşməsi
İstehsalın müxtəlif növlərinin ayrı-ayrı təsərrüfat subyektləri tərəfindən həyata keçirilməsi
İxtisaslaşmış istehsalların qarşılıqlı əlaqəsi
İxtisaslaşma əsasında istehsal kooperasiyasının ümumi xarakter alması
Mənfəətin bir hissəsinin istehsal amillərinin genişləndirilməsinə yönəldilməsi yolu ilə istehsalın artırılması
Müəssisələrin birləşməsi, qovuşması və ilhaqı yolu ilə istehsalın genişləndirilməsi

## İSTEHSAL MÜDDƏTLƏRİ

**Qısa müddətli dövrdə istehsal**

İstehsalın bir qisim amillərinin (torpaq, maşın. qurğu, dəzgah və. s) dəyişməz, digərlərinin isə (işçi qüvvəsi, xammal, materiallar) dəyişə bildiyi dövr.

İstehsalın genişləndirilməsi imkanları məhdudddur.

**Uzun müddətli dövrdə istehsal**

Bütün istehsal amilərinin dəyişə bildiyi və bir-birini əvəz edə bildiyi dövr.

İstehsalın amilərinin genişləndirilməsi və səmərəli əlaqələndirilməsi yolu ilə istehsalı genişləndirmək və onun optimal həcmini seçmək imkanları genişdir.

İstehsal və istehsal funksiyası

↓

İstehsal amilləri

↓

Texnologiya- istehsal amillərinin qarşılıqlı əlaqəsi (vəhdəti)

↓

İstehsal amillərinin kombinasiyası

↓

İstehsal funksiyası (F): istehsal amillərinin kombinasiyası ilə istehsalın həcmi (Q) arasında qarşılıqlı əlaqə.

(yəni, Q=F (Ə.T.K.)

Ə-əmək

T-torpaq

K-kapital



MUHASIBAT.AZ




MUHASIBAT.AZ





MUHASIBAT.AZ

| TƏLƏBATLARIN (İNSANIN VƏ CƏMİYYƏTİN HƏYAT FƏALİYYƏTİNİ VƏ İNKİŞAFINI TƏMİN ETMƏK ÜÇÜN HƏR HANSI BİR NƏYƏSƏ OLAN EHTİYAC) NÖVLƏRİ | |
|---|---|
| İlkin - heç bir şeylə əvəz edilə bilməyən yaşayış vasitələrinə (yemək, paltar, mənzil) olan tələbat | Törəmə - dəyişidirilə, əvəz edilə bilən tələbatlar (kitab, gəzinti, bəzək əşyaları) |
| Maddi -yaşayış vasitələrinə (yemək, paltar, mənzil) və istehsal vasitələrinə (maşın, dəzgah) olan tələbat | Mənəvi – elmə, biliyə, ünsiyyətə, gəzintiyə və s. olan, qəzet və kitab oxumağa, şer və musiqi yazmağa, şəkil çəkməyə və s. olan tələbat |
| İstehsal tələbatı - istehsal vasitələrinə olan tələbat | İstehlak (qeyri-istehsal) tələbatı – istehlak şeylərinə olan tələbat |
| Həqiqi tələbatlar - hazırki dövrdə, istehsalın hazırki inkişafı şəraitində ödənilməsi mümkün olan tələbatlar | Perspektiv tələbatlar– yalnız gələcəkdə ödənilməsi mümkün olan tələbatlar |
| Şəxsi və ailə tələbatları – ayrıca götürülmüş insanın və ailənin tələbatı | Cəmiyyətin tələbatları – ölkənin istehsal vasitələrinə, müdafiəyə, ETT-yə və s. olan tələbatı |

**TƏLƏBATLARIN QURULUŞU**
**(MASLOUNUN TƏLƏBATLAR PİRAMİDASI).**






MUHASIBAT.AZ









MUHASIBAT.AZ

## 3. MÜLKİYYƏT MÜNASİBƏTLƏRİ.






MUHASIBAT.AZ






MUHASIBAT.AZ






MUHASIBAT.AZ




MUHASIBAT.AZ





MUHASIBAT.AZ


İCTİMAİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ MÜLKİYYƏTİN ROLU
İqtisadi sistemlərin əsasını təşkil edir
Cəmiyyətin sosial təbəqələrinin mövqeyini müəyyən edir
İnsanların ümumi daxili məhsulda və məcmu gəlirlərdə payını müəyyən edir. (marksizmə görə)
Cəmiyyətin tarixi inkişafı nəticəsidir və bu prosesdə dəyişikliyə uğrayır
Ənənəvi iqtisadi sistem
İnzibati amirlik sistemi
Bazar iqtisadi sistemi
Xüsusi mülkiyyət
Dövlət mülkiyyəti
Dövlət mülkiyyəti
Xüsusi mülkiyyət
Sahibkarlar
Muzdlu işçilər
Dövlət qulluqçuları
Kapitalistlər
Muzdlu fəhlələr
İcma mülkiyyəti
Quldar mülkiyyəti
Feodal mülkiyyəti
Kapitalist mülkiyyəti
İctimai (dövlət) mülkiyyəti





MUHASIBAT.AZ

## DÖVLƏT MÜLKİYYƏTİNİN ÖZƏLLƏŞDİRİLMƏSİ

**Məqsədi**

- İqtisadiyyatın liberallaşdırılması
- Sahibkarlığın inkişafı
- Rəqabət mühitinin formalaşdırılması
- İqtisadiyyata investisiyaların cəlb olunması
- İqtisadiyyatın səmərəliliyinin artırılması
- Struktur dəyişikliklərinin aparılması
- Əhalinin həyat səviyyəsinin yüksəldilməsi

**Prinsipləri**

- Özəlləşdirmədə aşkarlıq
- Özəlləşdirmə üzərində ictimai və dövlət nəzarəti
- Özəlləşdirmə prosesində bütün alıcılar üçün bərabər şəraitin yaradılması

**Üsulları**

- Müəssisələrin əmlakının əmək kollektivi üzvlərinə güzəştli şərtlərlə satışı
- Müəssisələrin fərdi layihələr üzrə özəlləşdirilməsi
- Əmlakın hərraclar (o cümlədən ixtisaslaşmış çek və pul hərracları) vasitəsilə satışı
- Əmlakın investisiya müsabiqəsi vasitəsilə satışı
- İcarəyə verilmiş dövlət əmlakının satışı
- Müəssisələrin müflis elan olunması yolu ilə satışı



MUHASIBAT.AZ

# 4. İQTİSADİ SİSTEMLƏR



| İQTİSADİ SİSTEMİN XÜSUSİYYƏTLƏRİ | | | |
|---|---|---|---|
| İqtisadi sistem | Təşkili sistemi | Məqsəd | Tənzimləyici |
| Ənənəvi iqtisadiyyat | Məhdudlaşdırma (reqlamentləşdirmə) | Tələbatın ödənilməsi | Adət, ənənə |
| İnzibati amirlik iqtisadiyyatı | İstehsalın həcminin müəyyənləşdirilməsi | Sabit inkişaf | Dövlət |
| Bazar iqtisadiyyatı | Bazar subyektlərinin qarşılıqlı fəaliyyəti | Sabit inkişaf | Qiymət, dövlət |



MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## İQTİSADİ SİSTEMİN (İ/S) MƏZMUNU

- İ/s maddi və qeyri-maddi nemətlərin istehsalçıları və istehlakçıları arasında xüsusi təşkil edilmiş iqtisadi əlaqələr sistemidir.

- İ/s məhdud iqtisadi resurslardan səmərəli istifadə etməklə cəmiyyət və insanların tələbatlarını ödəmək üçün yaradılmış iqtisadi qurumların qarşılıqlı əlaqəsinin təmin edilməsi sistemidir.

- İ/s cəmiyyət qarşısında dayanan sosial-iqtisadi problemlərin həllinə yönəldilmiş təşkilatı-iqtisadi mexanizmlərin vəhdəti və məcmusudur.

- İ/s təkrar istehsal prosesində fəaliyyət göstərən iqtisadi subyektlərin və bütövlükdə cəmiyyətin tələbatlarının və maraqlarının ödənilməsinə yönəldilmiş istehsal imkanlarına malik olan institutsional, texniki-texnoloji, təşkilatı-struktur, sosial-iqtisadi, təbii-resurs və sosial-psixoloji parametrlərin məcmusudur.


MUHASIBAT.AZ






MUHASIBAT.AZ

# İQTİSADİ SİSTEMLƏRİN FƏRQLİ CƏHƏTLƏRİ

**İnzibati amirlik sistemi**

- İstehsal vasitələri üzərində ictimai (dövlət) mülkiyyəti
- İstehsalın və istehlakın həcminin,strukturunun, qiymətlərin səviyyəsinin dövlət tərəfindən müəy- yən edilməsi
- Mərkəzləşdirilmiş plan- laşdırma,dövlət norma- tivləri və limitləri
- İqtisadi resursların mər- kəzləşdirilmiş bölgüsü
- Gəlirlərin bölüşdürül- məsində bərabərlik
- İqtisadiyyatın inzibati üsullarla vahid mərkəz- dən idarə edilməsi
- Əhalinin sosial müdafiəsi sistemi

**Bazar iqtisadi sistemi**

- İstehsal vasitələri üzərində xüsusi mülkiyyət
- İqtisadiyyatda rəqabət
- İqtisadi resursların səmərəli bölüşdürülməsi
- İstehsalın yüksək səmərəliliyi
- Azad sahibkarlıq
- İqtisadi fəaliyyətin nəticələrinə görə yüksək maddi maraq
- Tələb və təklifin qarşılıqlı əlaqəsi
- Azad bazar qiymətlərinin tənzimləyici rolu
- İqtisadiyyatda dövlətin məhdud rolu
- Texnika və texnologiyanın yüksək inkişaf səviyyəsi

**Ənənəvi iqtisadi sistemi**

- Təsərrüfatçılıq adət və ənənələ- rin üstün rolu
- İdarəetmədə ierarxiya prin- sipinin üstünlüyü
- İqtisadiyyatın nisbi qapalı xarakteri
- Texnika və tex- nologiyanın aşağı inkişaf səviyyəsi

**QARIŞIQ İQTİSADİYYAT**

- İqtisadiyyatda çox mülkiyyətli təsərrüfatçılıq formaları
- İqtisadiyyatda bazar mexanizmi və dövlətin qarşılıqlı fəaliyyəti və birgə tənzimləyici rolu



MUHASIBAT.AZ




MUHASIBAT.AZ

# İSTEHSAL İMKANLARI QRAFİKLƏRİ

Şəkil 1.




Şəkil 2.




1) Şəkil 1. – cəmiyyətin iqtisadi resursları 7 vahid həcmində A məhsulu və ya 4 vahid həcmində B məhsulu istehsal etməyə imkan verir.

2) Şəkil 2. – İstehsal imkanları üzrənidə yerləşən hər bir nöqtə A və B məhsullarının eyni vaxtda istehsalı nisbətlərini əks etdirir.

Şəkil 3.




Şəkil 4.




3) Şəkil 3 - cəmiyyətin əlavə imkanları eyni həcmlərdə A və B məhsullarının artırılmasına yönəldilmişdir.

4) Şəkil 4 – cəmiyyətin əlavə imkanları yalnız B məhsulunun artırılmasına yönəldilmişdir.



MUHASIBAT.AZ

Şəkil 5.




Şəkil 6.




Şəkil 7.




5) Şəkil 5 – cəmiyyətin əlavə imkanları yalnız A məhsulunun istehsalının artırılmasına yönəldilmişdir.

6) Şəkil 6 – İstehsal imkanları qrafiki daxilində yerləşən C nöqtəsi cəmiyyətin istehsal imkanlarından tam istifadə edilməməsini göstərir.

7) şəkil 7 - İstehsal imkanları əyrisi qrafikinin xaricində yerləşən C nöqtəsi hazırda daxili imkanlar hesabına həmin səviyyənin əldə edilməsinin mümkünsüzlüyünü əks etdirir.



MUHASIBAT.AZ

## 5. MÜBADİLƏ NƏZƏRİYYƏSİ. (ƏMTƏƏ TƏSƏRRÜFATI. ƏMTƏƏ, DƏYƏR VƏ PUL NƏZƏRİYYƏLƏRİ)









MUHASIBAT.AZ






MUHASIBAT.AZ




MUHASIBAT.AZ

# ƏMTƏƏ İSTEHSALININ TİPLƏRİ

## Sadə əmtəə istehsalı.

- İstehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanır.
- İstehsal vasitələri istehlakçıya məxsusdur.
- Mülkiyyətin, istehsal prosesinin və idarəetmənin çulqalaşması.
- İstehsal vasitələrinin mülkiyyətçilərinin şəxsi əməyinə əsaslanır.
- Mübadilə şəxsi istehlak məqsədi ilə həyata keçirilir.
- İstehsal zəif texniki və texnoloji bazaya əsaslanır.
- İstehsalın həcmi məhduddur.

## Kapitalist (inkişaf etmiş) əmtəə istehsalı.

- İstehsal vasitələri mülkiyyətçiyə (sahibkara) məxsusdur.
- İstehsal muzdlu əməkdən istifadəyə əsaslanır.
- İstehsal genişlənmək, inkişaf etmək, mənfəət naminə həyata keçirilir.
- İstehsal inkişaf etmiş texniki, texnoloji baza əsasında qurulur.
- Resurslara görə gəlirlər əmək haqqı, mənfəət, renta, faiz şəklində çıxış edir.
- Mülkiyyət, əmək və idarəetmə funksiyaları bir-birindən təcrid olunmuşdur.
- İstehsalın həcmi və strukturu bazar qüvvələri tərəfindən müəyyən olunur.

## Planlı əmtəə istehsalı.

- İstehsal vasitələri üzərində ictimai mülkiyyətə əsaslanır.
- İstehsal üçün zəruri olan iqtisadi resurslar dövlət tərəfindən bölüşdürülür və reqlamentləşdirilir.
- Əmtəənin qiyməti dövlət tərəfindən müəyyən edilir və tənzimlənir.
- Rəqabətin olmadığı şəraitdə həyata keçirilir.
- İstehsalın həcmi və strukturu dövlət tərəfindən müəyyən edilir.
- Əmtəə istehsalçıları - nın iqtisadi azadlıq səviyyəsi xeyli aşağıdır.



MUHASIBAT.AZ

**DƏYƏR FORMALARININ İNKİŞAFI VƏ PULUN MEYDANA GƏLMƏSİ (TƏKAMÜL NƏZƏRİYYƏSİ)**

↓

Sadə dəyər forması.

20 kq taxıl = 1 qoyun

↓

**GENİŞ DƏYƏR FORMASI**

20 kq taxıl = 
- 1 balta
- 3 qr. qızıl
- 2 köynək
- 1 qoyun

↓

**ÜMUMİ DƏYƏR FORMASI**

- 20 kq. taxıl
- 1 balta
- 3 qr. qızıl
- 2 köynək

= 1 qoyun

↓

**DƏYƏRİN PUL FORMASI**

- 20 kq. taxıl
- 1 balta
- 1 qoyun
- 2 köynək

= 3 qr. qızıl



MUHASIBAT.AZ


MARKSİZMİN ƏMƏK DƏYƏR NƏZƏRİYYƏSİ
ƏMTƏƏNİ YARADAN ƏMƏK
Konkret əmək
Abstrakt (mücərrəd) əmək
İstehlak dəyəri
Mübadilə dəyəri
Fərdi iş vaxtı
İctimai zəruri iş vaxtı
Fərdi dəyər
İctimai dəyər
Əmək məhsuldarlığı
Əməyin intensivliyi
Sadə və mürəkkəb əmək
Dəyər qanunu
Əməyin səmərəlilik dərəcəsi
Əməyin gərginlik dərəcəsi
Əməyin mürəkkəblik dərəcəsi
İstehsal proporsiyalarını tənzimləyir
Əmtəə istehsalçılarını təbəqələşdirir
Məhsuldar qüvvələrin inkişafını stimullaşdırır




MUHASIBAT.AZ

**TƏDAVÜL ÜÇÜN LAZIM OLAN PULUN MİQDARI (M)**

MV= PQ buradan

M= PQ / V

M- tədavül üçün lazım olan pulun miqdarı

P- qiymətlərin səviyyəsi (əmtəə və xidmətlərin orta qiymət indeksi)

Q- UMM-nın real səviyyəsi

V- pul vahidinin dövr sürəti (pulların il ərzində orta hesabla neçə dəfə əmtəə və xidmətlərin alınmasına sərf edilməsi)

| PUL NƏZƏRİYYƏLƏRİ | |
|---|---|
| 1. Metallist pul nəzəriyyəsi | Pullar qiymətli metallara bərabər tutulur. |
| 2. Nominalist nəzəriyyəsi | Pullar yalnız dəyər nişanələridir, şərti hesablaşma vahidləridir, dövlət hakimiyyətinin və hüquqi münasibətlərin məhsuludur. |
| 3. Kəmiyyət nəzəriyyəsi | Pulun dəyərinin səviyyəsi onun kəmiyyətilə tərs mütənasibidir. |
| 4. Tənzimlənən valyuta nəzəriyyəsi | Dövriyyədə olan pulların kəmiyyətinin tənzimlənməsi əmtəələrin qiymətinin, əmək haqqının, məhsul istehsalının həcminin normal səviyyədə saxlanılmasının, işsizliyin aradan qalldırılmasının əsas vasitəsidir. |



MUHASIBAT.AZ

# 6. BAZAR VƏ BAZAR İQTİSADİYYATI

| BAZARIN MAHİYYƏTİ HAQQINDA MÜXTƏLİF YANAŞMALAR | |
|---|---|
| 1. | Əmtəə və pulların tədavülü sferasıdır. |
| 2. | Alıcılar və satıcılar arasında tələb və təklifin dinamikasından asılı olaraq dəyişən sərbəst qiymətlərin formalaşması əsasında yaranan iqtisadi münasibətlər sistemidir. |
| 3. | İstehsalçılar və istehlakçılar arasında bilavasitə əlaqə yaradan əmtəə tədavülü münasibətlərinin məcmusudur. |
| 4. | Alıcıları və satıcıları bir yerə cəmləşdirən mexanizmdir. |
| 5. | Ölkə daxilində və ölkələr arasında mübadilə sferasıdır. |
| 6. | Tələb və təklifin tarazlığı məkanıdır. |
| 7. | İstehsalçı və istehlakçıların qarşılıqlı əlaqəsini və qarşılıqlı fəaliyyətini təmin edən mexanizmdir. |
| 8. | Ticarət sövdələşmələrinin həyata keçirildiyi yerdir. |
| 9. | Əmtəə istehsalı və mübadiləsi qanunları əsasında təşkil edilmiş mübadilədir. |
| 10. | Sərbəst şəkildə iqtisadi qərarlar qəbul edən alıcıların və satıcıların qarşılıqlı münasibətlər sistemidir. |
| 11. | Mülkiyyət formalarının, əmtəə-pul əlaqələrinin və maliyyə-kredit sisteminin əlaqəli şəkildə istifadəsi əsasında iqtisadiyyatın fəaliyyətinin mürəkkəb mexanizmidir. |
| 12. | Təkrar istehsalın butun fazalarında alqı-satqı vasitəsi ilə həyata keçirilən təşkilati-iqtisadi münasibətlər sistemidir. |
| 13. | İstehsal amillərinin və hazır məhsulların real qiymətləndirilməsi mexanizmidir. |


MUHASIBAT.AZ


BAZARIN MƏZMUNU
Yaranma şərtləri
Yaranma səbəbləri
Xüsusiyyəitləri
İctimai əmək bölcüsü
I İ.Ə.B
II İ.Ə.B
III İ.Ə.B
İxtisaslaşma
Predmet üzrə
Detallar üzrə
Texnoloji (mərhələlər) üzrə
Mübadilənin meydana gəlməsi
İstehsal imkan-larının və iqti-sadi resursların məhdudluğu
Əmtəə istehsalçı-larının iqtisadi cəhətdən təcrid olunması və xü-susi mülkiyyətin yaranması
Bazar subyektlərinin sərbəst davranışları və qərarları.
Bazar qiymətlərinin azad şəkildə formalaşması.
İstehlakçıların mənafelərinə yönəlmə.









MUHASIBAT.AZ

## BAZAR SUBYEKTLƏRİNİN QARŞILIQLI FƏALİYYƏTİ






MUHASIBAT.AZ

## BAZARIN FUNKSİYALARI

- Tənzimləyici- iqtisadi proseslərinin tələb və təklif əsasında tənzimlənməsi.
- Stimullaşdırıcı-məsrəflərin aşağı salınmasının, texnika və texnologiyanın təzələnməsinin stimullaqdırılması.
- İnformativ - bazar subyektlərinə qiymət vasitəsilə bazar konyukturası haqqında məlumatların çatdırılması.
- Bölüşdürücü – iqtisadi resursların bazarın (istehlakçıların) tələbləri əsasında müxtəlif məhsullar istehsalına və iqtisadi fəaliyyət formaları arasında bölüşdürülməsi.
- Sistem əmələ gətirici- təkrar istehsalın fazalarının vahid sistemdə əlaqələndirilməsi.
- Qiymətləndirici - əmtəə istehsalçılarının əməyinin ictimaiyyət tərəfindən qiymətləndirilməsi.
- Təbəqələşdirici- əmtəə istehsalçılarının təbəqələşdirilməsi.
- Vasitəçilik- alıcılar və satıcılar arasında məhsulun əldə edilməsi və reallaşdırılması üzrə vasitəçilik edilməsi


MUHASIBAT.AZ

## BAZAR SUBYEKTLƏRİNİN VƏZİFƏLƏRİ

### Ev təsərrüfatları

- İnsan kapitalının istehsalını və təkrar istehsalını həyata keçirir.
- Hər hansı bir iqtisadi resursun mülkiyyətçisidir.
- İstehsal amillərini bazara çıxarır, icarəyə verir.
- Sərbəst iqtisadi qərarlar qəbul edir.
- Tələbatlarını tam ödəməyə çalışır.
- Gəlirlərdən dövlətə vergi ödəyir.

### Firmalar (müəssisələr)

- Bazardan istehsal amillərini əldə edir.
- Məhsul istehsalı və satışı üzrə sərbəst qərarlar qəbul edir.
- Mənfəətin artırılmasına çalışır.
- Partnyorları qarşısında öhdəliklərini həyata keçirir.
- Dövlətə vergi ödəyir

### Dövlət

- Bazar subyektlərinin normal fəaliyyəti üçün zəruri şəraiti təmin edir.
- İctimai sərvətlərin əldə edilməsinə vəsait ayırır
- Bazar subyektlərindən vergiləri toplayır
- Bazar subyektlərinin mülkiyyəti hüquqlarını qoruyur.



MUHASIBAT.AZ

**BAZAR İQTİSADİYYATI** – istehsal amilləri üzərində xüsusi mülkiyyətə və təsərrüfat subyektlərinin sərbəst qərarlarına əsaslanan iqtisadi sistem.

**Üstünlükləri**

- İqtisadiyyatın yüksək iqtisadi səmərəliliyi
- İqtisadi resursların səmərəli bölüşdürülməsi
- İqtisadi subyektlərin sərbəstliyinin təmin edilməsi
- İqtisadi subyektlərin dəyişkən şəraitə tez bir zamanda uyğunlaşması üçün zəruri mühitin mövcudluğu
- ETT-nin nailiyyətlərindən maksimum istifadə və stimullaşdırma imkanları
- Xroniki qıtlığın mümkünsüzlüyü

**Çatışmazlıqları**

- Sosial təbəqələşmə
- İşsizlik
- İnflyasiya
- Gəlirlərin qeyri bərabər bölüşdürülməsi
- İnhisarçılıq
- İstehsalın tsiklik xarakteri
- İctimai sərvətlərə bazar mexanizmi vasitəsi ilə vəsaitin ayrılmaması
- Ekoloji problemlər



MUHASIBAT.AZ

## BAZAR İQTİSADİYYATININ İNKİŞAF MƏRHƏLƏLƏRİ.

- **Azad (xalis) bazar iqtisadiyyatı XVII-XX əsrlər (50-ci illər)**
  - Xüsusi mülkiyyət
  - Azad sahibkarlıq
  - Şəxsi maddi maraq
  - Azad rəqabət
  - Bazar mexanizminin nisbi sərbəstliyi
  - İqtisadiyyatda dövlətin məhdud rolu
  - Seçim azadlığı
  - İqtisadiyyatın bazar mexanizmi vasitəsilə tənzimlənməsi
  - Azad rəqabət mühiti

- **Tənzimlənən bazar iqtisadiyyatı (XX-əsrin 50-ci illərindən sonrakı dövr)**
  - İqtisadiyyatda çoxmülkiyyətçilik
  - Bazar mexanizmi və dövlətin qarşılıqlı fəaliyyəti
  - İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi
  - İqtisadiyyatın sosial yönümlülüyü



MUHASIBAT.AZ


BAZAR SİSTEMİNİN NORMAL FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİNİN ƏSAS ŞƏRTLƏRİ
Rəqabət mühiti
Bazarın inhisarsızlaşdırılması
Xüsusi mülkiyyət hüququnun qorunması
Çoxmülkiyyətli təsərrüfatçılıq formalarının fəaliyyəti üçün əlverişli şəraitin yüaradılması
Təşkilati-iqtisadi və hüquqi şərait
İqtisadiyyatın artım imkanlarının reallaşdırılması
Sərbəst kapital
Əmək ehtiyyatları
Təbii resurslar
Resursların hərəkətliyinin (mobilliyinin, çevikliyinin) təmin edilməsi
Zəruri qanunvericilik sənədlərinin qəbul edilməsi.
Bazar infrastrukturu
İqtisadiyyatın kriminalsızlaşdırılması

# 7. BAZAR İQTİSADİYYATININ MODELLƏRİ






MUHASIBAT.AZ





MUHASIBAT.AZ





MUHASIBAT.AZ




MUHASIBAT.AZ

| **BAZAR İQTİSADİYYATININ ƏSAS VƏ TÖRƏMƏ MODELLƏRİNİN MÜƏYYƏNEDİCİ ƏLAMƏTLƏRİ** | |
|---|---|
| Liberal model | İqtisadiyyata dövlətin məhdud müdaxiləsi, azad sahibkarlıq və təşəbbüskarlıq. |
| Tənzimlənən bazar iqtisadiyyatı modeli | İqtisadiyyatın dövlət tərəfindən fəal tənzimlənməsi və sosial yönümlüyü, iqtisadiyyatda dövlətin və bazar mexanizminin qarşılıqlı əlaqəsi və fəaliyyəti, neokonservativ yanaşmaların islahatçılıq fəaliyyəti ilə əlaqələndirilməsi; |
| Gənub- Şərqi Asiya ölkələrinin modelləri | İqtisadiyyatın bütün sahələrinə dövlətin sistemli, məqsədəuyğun və fəal müdaxiləsi; iqtisadi siyasətin uzunmüddətli strategiyası; dövlət və özəl bölmələrin elmi-texniki fəaliyyəti, onların investisiya, struktur islahatları və xarici ticarət sahələrində inteqrasiyası və iqtisadi maraqlarının çulqalaşması; iqtisadiyyatda icma davranış tərzinin və Milli adət ənənələrin bu və ya digər səviyyədə qorunub saxlanılması. |
| Postsosialist ölkələrin iqtisadi modelləri | Bazar yönümlü iqtisadi islahatların xarakterində, reallaşdırılması sürətində və mərhələlərində ciddi fərqlilik; yerli xüsusiyyətlərdən və bazar iqtisadiyyatının tələblərindən çıxış edərək iqtisadi strategiyanın seçilməsi; dünya təsərrüfat sistemində öz mövqeyini müəyyənləşdirmək istiqamətində iqtisadi fəaliyyət, iqtisadi proseslərdə dövlətin bu və ya digər səviyyədə iştirakı. |


MUHASIBAT.AZ

## ALMAN MODELİ
## (SOSİAL BAZAR TƏSƏRRÜFATI)

- Sosial problemlərin həlli baxımından dövlətin iqtisadiyyata güclü təsiri
- İqtisadiyyatın sosial yönümlüyü, dövlətin sosial öhdəlikləri, pulsuz səhiyyə və təhsil
- İqtisadiyyatın əsas makroiqtisadi göstəricilərinin dövlət tərəfindən planlaşdırılması
- Müəssisə işçilərinin müəssisə mülkiyyətində iştirakı yolu ilə sosial əməkdaşlıq prinsipinin reallaşdırılması
- İqtisadi proseslərdə bankların aparıcı rolu, mərkəzi bankın tam müstəqilliyi
- İşçilərin və müəssisə rəhbərlərinin əmək haqlarında kəskin fərqlərin olmaması

- Azad sahibkarlıq sistemində kiçik və orta biznesin mühüm əhəmiyyəti, onların dövlət tərəfindən hərtərəfli himayəsi və stimullaşdırılması
- İqtisadiyyatın tənzimlənməsinin əsasən kredit- pul siyasəti vasitəsilə həyata keçirilməsi
- ÜDM dəyərinin dövlət büdcəsində yüksək xüsusi çəkisi
- Çevik əmək bazarı
- Bazar mexanizminin səmərəli fəaliyyəti



MUHASIBAT.AZ

## MALAZİYA MODELİ

- Bazar prinsipləri və milli iqtisadi prioritetlərin vəhdəti
- İqtisadiyyatın aparıcı sahələrində dövlət korporasiyalarının geniş yayılması
- Ölkədə xarici investisiyalardan istifadə prosesində milli iqtisadi təhlükəsizliyin əsas şərt kimi qəbul edilməsi
- Kiçik və orta biznesin özəl mülkiyyət və xüsusi sahibkarlıq əsasında inkişafı
- İqtisadi liberalarizmdən, monetarizmdən və Beynəlxalq Valyuta Fondunun tövsiyələrindən əsasən imtina edilməsi
- İqtisadiyyatın sosial yönümlülüyü
- İqtisadiyyatın strateji sahələrinin dövlət tənzimlənməsi
- İqtisadiyyatda pulun, mülkiyyətin və vaxt amilinin əhəmiyyətinin iqtisadi subyektlər tərəfindən yüksək qiymətləndirilməsi
- İqtisadiyyatın inkişafının uzun müddətli plan və tapşırıqlarının müəyyən edilməsi
- Daxildə və xaricdə aparılan valyuta əməliyyatları üzərində dövlət nəzarətinin həyata keçirilməsi və nəticədə stabil valyuta dövrüyyəsinin təmin edilməsi

MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## AMERİKA MODELİ

- Dövlət mülkiyyətinin iqtisadiyyatda kiçik payı
- İqtisadiyyatın dövlət tərəfindən məhdud şəkildə tənzimlənməsi
- Azad sahibkarlığın hərtərəfli həvəsləndirilməsi
- Kasıblar və dövlətlilər arasında kəskin sosial təbəqələşmə
- Sosial siyasətin qalıq prinsipi əsasında həyata keçirilməsi

- Aztəminatlı əhali qrupları üçün minimum yaşayış şəraitinin təmin edilməsi
- Firmanın rərbələrinin və işçilərinin gəlirləri arasında ciddi fərqlərin olması
- Bazar mexanizminin sərbəst və səmərəli fəaliyyəti
- İqtisadi proseslərdə bütün növlərdən olan birjaların aparıcı rolu
- İqtisadiyyatda yüksək əmək məhsuldarlığı və iqtisadi fəal əhalinin şəxsi müvəffəqiyyətinin vəhdəti prinsipinin əsas götürülməsi


MUHASIBAT.AZ






MUHASIBAT.AZ


YAPON MODELİ
İqtisadiyyatın sosial yönümlülüyü
Firmalarda ömürlük müzd sisteminin tətbiqi
Hərbi xərclərin özünü müdafiə səviyyəsində məhdudlaşdırılması
Firmalarda işçilərin və sahibkarların bütün səviyyələrdə mənafelərinin ahəngdarlaşdırılması
Xarici inkişaf etmiş ölkələrin qabaqcıl texnika və texnologiyalarının patent və lisenziyalarının satın alınması
Firma işçilərinin qərar qəbul etmə və idarəetmə proseslərinə cəlb olunması
İşçi qüvvəsinin əmək haqqının digər ölkələrdəkinə nisbətən aşağı səviyyəsi
Firmanın işinin nəticələrində bütün təbəqələrdən olan işçilərin maraqlı olması
Yapon vətənpərvərliyi, milli mənafelərin şəxsi mənafelərdən üstün tutulması
Firmanın rəhbərləri və işçilərinin əmək haqqları səviyyələrində kəskin fərqin ol-maması
Milli iqtisadiyyatın prioritetlərinin dövlət tərəfindən müəyyənləşdirilməsi və onların inkişafının stimullaşdırılması
Əmək haqqının əmək məhsuldarlığın-dan geri qalması hesabına məhsulun dəyərinin aşağı salınması yolu ilə dünya bazarında ölkənin rəqabət qabiliyyətiliyinin yüksəlməsi
Cari, beş illik və strateji planlaşdırmanın geniş tətbiqi
Beynəlxalq ticarətdə fəal iştirak
Dövlətin birbaşa investisiyalarından iqtisadiyyatda geniş istifadə olunması
İnvestisiya və yığımların yüksək səviyyəsi

## İSVEÇ MODELİ
## (sosial yönümlü iqtisadiyyat)

- İqtisadiyyatın aşağı səmərəlilik səviyyəsi
- Milli gəlirin böyük bir hissəsinin dövlət tərəfindən yenidən bölüşdürülməsi
- İqtisadiyyatda dövlət mülkiyyətinin nisbi yüksək xüsusi çəkisi
- Bir sıra hallarda qiymətlərin əmələ gəlməsi proseslərinə dövlətin müdaxiləsi
- Müəssisələrdə güclü həmkarlar ittifaqlarının fəaliyyəti
- İqtisadi inkişaf üçün əlverişli təbii resursların (dəmir filizi, meşə materialları, əlvan metallar, enerji ehtiyatları) mövcudluğu
- İstehsal vəzifəsinin əsas hissəsinin özəl müəssisələrin üzərinə düşməsi
- Kənd təsərrüfatında kooperativlərin geniş yayılması, mexanikləşdirilmiş, yüksək məhsuldarlıqlı fermer təsərrüfatlarının üstün rolu

- Əmlak bərabərsizliyinin məhdudlaşdırılması
- Mütərəqqi vergi sisteminin tətbiqi
- Dövlət bölməsi tərəfindən sosial xidmətlərin pulsuz həyata keçirilməsi
- İstehsal və sosial infrastruktur sahələrinin fəaliyyətinin dövlət tərəfindən birbaşa maliyyələşdirilməsi
- Ölkədə yüksək məşqulluq səviyyəsinin təmin edilməsi
- Güclü pensiya və sosial sığorta sisteminin mövcudluğu
- Elmi texniki və layihə konstruktor işlərinə xeyli dövlət vəsaitinin yönəldilməsi
- İqtisadiyyatda güclü elmi-texniki kadrların, ixtisaslı işçi qüvvəsinin mövcudluğu
- Ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə sıx inteqrasiyası


MUHASIBAT.AZ

**CƏNUBİ KOREYA MODELİ**

- İqtisadi inkişafda industrial və postindustrial mərhələlərin əlaqəliliyi
- İqtisadiyyatın dövlət tənzimlənmə-sinin təsərrüfatçılığın bazar modelləri ilə əlaqələndirilməsi
- İqtisadiyyatın xarici kapital üçün açıqlığı
- İdxalın məhdudlaşrırlması və ixracın stimullaşdırılması yolu ilə milli sahibkarlığa himayə edilməsi
- İqtisadi inkişafın prioritet istiqamətlərinin, məqsədli strateji proqramların müəyyənləşdirilməsi və onlara dövlətin maliyyə -valyuta resurslarının yönəldilməsi
- İqtisadiyyatın ixrac yönümlüyü və bu prosesə dövlətin nəzarəti
- Yüksək ixtisaslı insan kapitalının mövcudluğu
- Dövlət tərəfindən geniş sosial proq-ramların, o cümlədən qiymətlərin stabilləşdirilməsi siyasətinin həyata keçirilməsi
- Hərbi-sənaye kompleksinin nisbətən aşağı səviyyəli xərcləri
- Ölkəyə güclü avtoritar hökumət simasında səmərəli rəhbərlik edilməsi
- Ölkə üçün etnik və mədəni həmcinsliyin xas olması
- İstehsalın imkanlarının daxili bazarın tələblərini xeyli aşması
- İnsanların yüksək əməksevərliyi və vətənpərvərliyi


MUHASIBAT.AZ

# 8. BAZAR İNFRASTRUKTURU: MAHİYYƏTİ VƏ FUNKSİYALARI

**BAZAR İNFRASTRUKTURUNUN MAHİYYƏTİNƏ MÜXTƏLİF YANAŞMALAR**

- Bazar iqtisadi sisteminin normal fəaliyyətini təmin etmək üçün firmalara (müəssisələrə) və əhaliyə xidmətlər göstərən təsərrüfat təşkilatlarının və qeyri- kommersiya müəssisələrinin sistemidir.
- Bazarda həyata keçirilən alqı-satqı əməliyyatlarına xidmət edən, onları həyata keçirən sahələrin, sistemlərin. firmaların vəhdəti
- İqtisadiyyatın ümumi quruluşunun bazara xidmət edən və bununla da iqtisadi sistemin fəaliyyətinə şərait yaradan köməkçi tərkib hissələrin (müəssisələrin) məcmusu
- Bazarın müxtəlif formalarının fəaliyyəti üçün zəruri iqtisadi mühitin yaranmasına xidmət etməklə bazarlar sisteminin normal qarşılıqlı və səmərəli fəaliyyətini təmin edən sahə, forma, iqtisadi blokların mürəkkəb sistemidir



MUHASIBAT.AZ

**BAZAR İNFRASTRUKTURUNUN ƏLAMƏTLƏRİ**

- İqtisadi və sosial səmərəlilik
- Kütləvilik
- Təkrar istehsalın bütün fazaları ilə əlaqəliliyi
- Kollektiv istehlak xarakteri
- İqtisadiyyatın makro və mikro səviyyələrinə xidmət etməsi
- İstehsal və qeyri-istehsal sahələrində fəaliyyət
- Elmi-texniki tərəqqi ilə əlaqəlilik
- Qarşılıqlı əlaqəlilik
- Cəmiyyət qarşısında dayanan cari və strateji məqsədlərə yönəlilik
- Çoxşaxəlilik
- İqtisadiyyatın və bazarın inkişaf səviyyəsinə adekvatlıq
- Müxtəlif mülkiyyətlər bazasında fəaliyyət göstərə bilməsi



MUHASIBAT.AZ


İNFRASTRUKTURUN TƏRKİB HİSSƏLƏRİ
Kommersiya xidmətləri təşkilatları
İstehsal xidmətləri
Elmi texniki xa-rakterli xidmət-lər
Sosial yönümlü xidmətlər
İnstitutsional xidmətlər
Audit şirkətləri
Birjalar
Yarmarkalar
Reklam firmaları
Sığorta şirkətləri
Marketinq firmaları
Konsaltinq firmaları
Hüquqi xidmət müəssisələri
Auksionlar
Ticarət firmaları
Kredit təşkilatları
Topdan satış müəssisələri
Pərakəndə satış müəssisələri
Banklar
Qeyri-bank kredit təşkilatları
Nəqliyyat
Rabitə
Maddi-texniki təchizat
Kommunikasiya sistemləri
Anbar təsərrüfatı
Daş və qum və s. inşaat materialları karxanaları
Digərləri
Elmi xidmət müəssisələri
Kadrların hazır-lanması və yeni-dənhazırlanması müəssisələri
Lizinq şirkətləri
İnformasiya şəbəkələri
İnjinirinq firmaları
Digərləri
Mənzil - kom-munal
Səhiyyə
Təhsil
Turizm
İncəsənət və mədəniyyət
Sosial təminat
İdman, bədən tərbiyəsi, sağ-lamlığın qorun-ması
Digərləri
Vergi sistemi
Gömrük sistemi
Ticarət palatası
Digərləri


BİRJALAR
Əmək birjaları
Əmtəə birjaları
Fond birjaları
Valyuta birjaları
Məşqulluqla bağlı xidmətlər göstərən dövlət və qeyri-dövlət iqtisadi qurumları
Obyekti
İş qüvvəsi
Alqı-satqı əməliyyatlarını malların standartları və nümunələri əsasında topdan-satış formasında həyata keçirən iqtisadi qurumları
Obyekti
Mallar
Qiymətli kağızların alqı-satqısının həyata keçirildiyi iqtisadi qurum
Obyekti
Qiymətli kağızlar
Dövlət xəzinə öhdəlikləri
Səhmlər
İstiqrazlar
Çeklər
Əmanət sertifikatları
Digərləri
Valyutanın alqı-satqısının həyata keçirildiyi iqtisadi qurumlar
Obyekti
Müxtəlif ölkələrin milli valyutası və kollektiv valyutalar


FOND BİRJALARI
Məqsədi
Qiymətli kağızların məzənnəsinin təyin edilməsi
Qiymətli kağızların alqı-satqısı üçün zəruri şəraitin yaradılması
Qiymətli kağızların normal tədavülünün təmin edilməsi
Qiymətli kağızlar bazarının iştirakçılarının fəaliyyətinin tənzimlənməsi
Təsis edilməsi sərtləri
Qüvvədə olan qanunvericiliyə müvafiq sürətdə qeydiyyatdan keçməlidir
Müvafiq lisenziya almalıdır
Bazar iştirakçıları arasında ədalətli rəqabət prinsiplərinə əməl olunmasını təmin etməlidir
Birja üzvlərinin və qulluqçularının qanuna zidd hərəkətlərindən investorların qorunmasını təmin etməlidir
Vəzifələri
Qiymətli kağızların auksiona buraxılması və qiymətləndirilməsi qaydalarını hazırlayır və dərc edir
Qiymətli kağızların ticarətə buraxılması (listinq) və ticarətdən çıxarılması (delistinq) qaydalarını müəyyən edir
Fəaliyyətin maliyyələşmə mənbələri
Səhmlərin birjaya üzv olmaq hüququ verən satışı
Birjada həyata keçirilən hər əqddən alınan birja rüsumu
Birja fəaliyyətindən əldə edilən digər gəlirlər


ƏMTƏƏ BİRJALARI
Fəaliyyət prinsipləri
Birja ticarəti iştirakçılarının hüquq bərabərliyi
Sərbəst (bazar) qiymətlərinin tətbiqi
Birja ticarətinin aşkarlığı
İştirakçılar
Broker
Diler
Ticarət dəllalları
Digərləri
Ticarət sövdələşmələri
Real malın alqı-satqısına dair əqdlər
Forvard əqdləri
Fyuçers əqdləri
Opsion əqdləri
Digər əqdlər
Hüquqları
Birja ticarətinin qaydalarını müəyyənləşdirmək
Dövlət standartlarını nəzərə almaqla nümunəvi kontraktlar işləyib hazırlamaq
Birja ticarətini müvəqqəti dayandırmaq
Mübahisələri həll etmək üçün münsiflər məhkəməsi səlahiyyətində arbitraj komissiyası yaratmaq
Digər birjalarda öz nümayəndəsini saxlamaq
Birja billetini və reklam informasiyaları dərc etdirmək
Vəzifələri
Birja ticarəti üçün normal şərait yaratmaq
Birja üzvlərinə və iştirakçılarına təşkilati və digər xidmətlər göstərmək
Müəyyən məhsul və xidmət istehsalı üçün yararlı olan istehsal vasitələri kompleksindən istifadə edən və bu zaman istehsal prosesində ümumi mənafe əsasında fəaliyyət göstərən əmək kollektivi
Hüquqi şəxs statusuna malik olan müstəqil təsərrüfat sukbyekti tərəfindən sərəncamında olan əmlakdan istifadə edərək məhsul və xidmətlərin istehsalı
İqtisadi cəhətdən təcrid olunma (əlahiddəlik)
İqtisadi fəaliyyət prosesində nisbətən müstəqil hərəkət edən müəssisə resusrlarının əlahiddəliyi
İqtisadi fəaliyyətlə bağlı məsrəflərin öz vəsaiti və ya kənardan cəlb edilən vəsait hesabına ödənilməsi
Təsərrüfatçılıqda əlahiddələşmiş məqsədlərin həyata keçirilməsi

**FİRMAYA DAXİL OLAN MÜƏSSİSƏLƏRİN BİRLƏŞMƏSİNİN XARAKTERİ**

- Üfqi əlaqəli firmalar
  - Eyni iqtisadi fəaliyyəti həyata keçirən müəssisələrin birliyi
- Şaquli əlaqəli firmalar
  - İqtisadi proseslərin müxtəlif mərhələlərində fəaliyyət göstərən və bir-birlərini tamamlayan müəssisələrin birliyi
- Konqlomerat (diversifikasiyalaşmış) firmalar
  - Müxtəlif iqtisadi sahələrdə və bazarlarda fəaliyyət göstərən müəssisələrin birliyi

MUHASIBAT.AZ


FİRMALARIN (MÜƏSSİSƏLƏRİN) MÜXTƏLİF MEYARLARA GÖRƏ TƏŞKİLATİ-HÜQUQİ FORMALARI
Ölçüsünə görə
Kiçik həcmli müəssisələr
Orta həcmli müəssisələr
İri həcmli müəssisələr
Mülkiyyət formasına görə
Xüsusi müəssisələr
Dövlət müəssisələri
Qarışıq müəssisələr
Təşkili formasına görə
Fərdi müəssisələr
Şəriklik
Korporasiyalar (səhmdar cəmiyyətləri)
Məhsulun xarakterinə görə
İstehsal vasitələri istehsal edən müəssisələr
İstehlak şeyləri istehsal edən müəssisələr
Xidmətlər göstərən müəssisələr
Sahə mənsubiyyətinə görə
Sənaye müəssisələri
Kənd təsərrüfatı müəssisələri
Tikinti müəssisələri
Ticarət müəssisələri
Rabitə müəssisələri
İctimai iaşə müəssisələri
Digərləri
Şərikli (tam ortaqlı) müəssisələr
Payçı və şərikli (kommondit ortaqlıqlar) müəssisə
Məhdud məsuliyyətli müəssisə


FİRMANIN
(MÜƏSSİSƏNİN) FƏALİYYƏTİNİN ƏSASLARI
Ölçü göstəriciləri
İşləyənlərin sayı
Kapitalın həcmi
Satışın həcmi
İllik dövriyyə
Digərləri
Məqsədlər
Mənfəətin maksimumlaşdırılması (klassik model)
Satışla bağlı gəlirlərin maksimumlaşdırılması (U. Baumol modeli)
İqtisadi fəaliyyətin həcmi-nin maksimumlaşdırılması (O.Uilyamson modeli)
İqtisadi artımın maksimumlaşdırılması (P.Merris modeli)
Mənafelərin ahəngdarlaşdırılması (X.Saymon modeli)
Digərləri
Fəaliyyət konsepsiyaları
Texnoloji
Kontrakt (saziş)
Strateji
İdarəetmə strukturu
Xətti (üfqi)
Funksional (şaquli)
Holdinq
Digərləri

| İQTİSADİYYAT SAHƏLƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN MÜƏSSİSƏLƏRİN QRUPLAŞDIRILMASI (Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı 10.VIII.2000) | | | |
|---|---|---|---|
| Sahə mənsubiyyəti | İşçilərin sayına görə qruplaşdırılma ( nəfərlə) | | |
| | Kiçik | Orta | İri |
| Sənaye | 50-dək | 50-150 | 150-dən çox |
| Tikinti | 50-dək | 50-100 | 100-dən çox |
| Nəqliyyat və rabitə | 50-dək | 50-100 | 100-dən çox |
| Elmi-texniki | 30-dək | 30-75 | 75-dən çox |
| Ticarət, xidmət və s. | 25-dək | 25-50 | 50-dən çox |

| Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 aprel 2004-cü il tarixli qərarı | | |
|---|---|---|
| | İşçilərin sayı | İllik dövriyyə |
| Sənaye və tikinti | 40-dan az | 1mlrd. man.az |
| Elmi texniki konsaltinq xidməti | 20-dən az | 750 mln. man.az |
| Kənd təsərrüfatı | 15-dən az | 500 mln. man.az |
| Topdan satış ticarəti | 10-dan az | 1,5 mlrd. man.az |
| Pərakəndə satış ticarəti, nəqliyyat, xidmət və digər iqtisadi fəaliyyət növləri | 5-dən az | 500mln.man.az |



MUHASIBAT.AZ





MUHASIBAT.AZ






MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## TƏŞKİLİ FORMASINA GÖRƏ MÜƏSSİSƏLƏRİN ÜSTÜNLÜKLƏRİ VƏ ÇATIŞMAZLIQLARI

| Müəssisələr | Üstünlüklər | Çatışmazlıqlar |
|---|---|---|
| 1.Fərdi müəssisələr -iqtisadi fəaliyyətin vahid subyekt (habelə onun ailə üzvləri tərəfindən birgə), öz şəxsi mənafeyi naminə həyata keçirməsinin təşkilati forması | Təsis olunmağın sadəliyi, müəssisə sahibinin qərar qəbul etməkdə azadlığı, müəssisənin mənfəəti üzərində sərbəst sərəncam vermək, işin nəticələrinə yüksək maddi maraq, şəxsi işi ilə şəxsi həyat tərzinin vəhdəti | Məhdud maliyyə resusrları kənardan kreditin cəlb edilməsinin çətinliyi, idarəetmə, mülkiyyət və nəzarət funksiyalarının müəssisə sahibi tərəfindən yerinə yetirilməsi və onun öz iqtisadi öhdəliklərinə görə tam məsuliyyət daşıması |
| 2. Şəriklik- iki və ya bir neçə insan tərəfindən müəssisəyə sahib olmaq və onu idarə etmək əsasında qurulmuş müəssisə | Təsis olunmağın sadəliyi, müəssisənin idarə edilməsi funksiyasının onun sahibləri arasında bölüşdürülməsi; fərdi müəssisələrə nisbətən daha geniş maliyyə resurslarına malik olması | Müəssisənin idarəedilməsi ilə bağlı onun sahiblərinin fikirlərinin, qərarlarının bəzən üst-üstə düşməməsi; Maliyyə imkanlarının nisbi məhdudluğu; fəaliyyət müddətinin qeyri-müəyyənliyi; iqtisadi fəaliyyətin nəticələri ilə bağlı tam məsuliyyət |
| 3. Korporasiyalar (səhmdar cəmiyyətləri) – nizamnamə fondunu tədavülə qiymətli kağızlar buraxmaq hesabına formalaşdırmaqla öz işgüzar fəaliyyətini həyata keçirən müəssisə | Müəssisələrin iri həcmli olması, əlavə kapitalın cəlb olunması üzrə geniş imkanlar (geniş maliyyə imkanları), inkişaf etmiş texniki, texnoloji baza və kadr potensialı; peşəkar idarəetmə (menecerlər vasitəsilə); məhdud məsuliyyət; fəaliyyət müddətinin sabitliyi və uzun ömurlüyü; | Təsis olunmağın çətinliyi;cəmiyyətin fəaliyyəti üzərində səhmdarların ciddi nəzarəti; inhisarçılığa meyllilik; ikiqat vergi ödənilməsi qaydası; cəmiyyətin sahibləri tərəfindən öz mövqelərindən sui-istifadə hallarının mümkünlüyü və nəzarət funksiyalarının bir-birindən ayrılması |


MUHASIBAT.AZ





MUHASIBAT.AZ

## TƏKMİL RƏQABƏT VƏ QEYRİ-TƏKMİL RƏQABƏT ŞƏRAİTİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN FİRMANIN ÜMUMİ GƏLİRLƏRİ

**Təkmil rəqabət şəraitində firmanın ümumi gəlirləri**

↓

Firma məhsulun qiymətinə təsir edə bilmir

↓

Ümumi gəlir yalnız firmanın istehsal həcmindən (Q) asılıdır. (bax şəkil1. )

↓

TR= F (Q)

**Qeyri-təkmil rəqabət şəraitində firmanın ümumi gəlirləri**

↓

Firma məhsulun qiymətinə təsir edə (aşağı sala) bilir

↓

Ümumi gəlir qiymətlərin dinamikasından və istehsalın həcmindən asılıdır. (şəkil 2.)

↓

TR=F (Q xP)




Şəkil 1.




Şəkil. 2



MUHASIBAT.AZ

**TƏKMIL VƏ QEYRI -TƏKMIL RƏQABƏT ŞƏRAITINDƏ ORTA VƏ SON HƏDD GƏLIRLƏRI**

Təkmil rəqabət şəraitində orta və son hədd gəlirləri (MR)

Qiymət sabit olduğuna görə istehsal həcmindən asılı deyildir, ona görə də MR=AR=P (bax şəkil. 3)

AR əyrisi- firmanın məhsuluna olan tələb əyrisidir

Qeyri-təkmil rəqabət şəraitində orta və son hədd gəlirləri (MR)

Firma qiymətə təsir edə bildiyindən onun orta gəlirlərini (R) səciyyələndirən əyri xətt aşağıya doğru səmtlənir

Firmanın son hədd gəlırləri (MR) orta gəlirlərdən (qiymətdən) azdır, belə ki, məhsulun əlavə vahidini satmaq üçün firma təkcə son məhsulun deyil, bütün məhsula olan qiyməti aşağı salmalıdır (bax şəkil.4) (MR<AR: burada MR <P




Şəkil 3.




Şəkil 4.



MUHASIBAT.AZ

## 15. İSTEHSAL AMİLLƏRİ BAZARI. ƏMƏK BAZARI.
## ƏMƏK HAQQI NƏZƏRİYYƏSİ.






MUHASIBAT.AZ

**ƏMƏK BAZARININ MƏZMUNU HAQQINDA MÜXTƏLİF BAXIŞLAR**

Əmək bazarı- əməklə bağlı tələb və təklifin qarşılıqlı fəaliyyəti nəticəsində əmək resurslarının qiymətinin əmələ qəldiyi bazardır

Əmək bazarı- əməyə tələblə çıxış edən iqtisadi subyektlərlə (firmalar və dövlət) əməyi təklif edən əhali arasında əlaqə və münasibətlər yaradan iqtisadi mexanizmlər, normalar və təsisatlar (institutlar) sistemidir

Əmək bazarı- istehsal amillərindən birinin- əməyin əldə edilməsi üzrə münasibətlərin məcmusudur

Əmək bazarı- əmək xidmətlərinin satıcıları və alıcıları arasında əlaqə sferasıdır ki, onun da nəticəsində əmək xidmətlərinin qiyməti yaranır və bölüşdürülməsi baş verir

Əmək bazarı- iş qüvvəsinin mülkiyyətçisi ilə istehsal vasitələrinin sahibi arasında sosial-iqtisadi münasibətlər sistemidir

Əmək bazarı- iş qüvvəsinin satıcısının və alıcısının iş yeri və tələb olunan keyfiyyətlərə malik işçi tapmaq üzrə maraqlarının reallaşdırıldığı məkandır



MUHASIBAT.AZ


ƏMƏK BAZARININ SUBYEKTLƏRİ
İşə götürənlər (sahibkarlar)
İş axtaranlar (işçilər
Sahibkarlar və işçilər arasında vasitəçilik edənlər
Hakimiyyət orqanları nümayəndələri
İşçilərin mənafelərini qoruyanlar (həmkarlar ittifaqları)
Sahibkarlıran mənafelərini qoruyanlar (sahibkarlar ittifaqları)
Məşqulluq xidmətləri
Özəl məşqulluq xidmətləri
Dövlət məşqulluq xidmətləri





MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## ƏMƏK BAZARININ XÜSUSİYYƏTLƏRİ

- Əmək bazarında işçi deyil, yalnız əmək xidmətləri alınır-satılır
- Əməyin ödənilməsi təkcə əmək haqqı şəklində deyil, digər əlavə ödənişlər və güzəştlər vasitəsilə həyata keçirilir
- Əmək sazişləri özünə təkcə əmək haqqının səviyyəsi deyil, həm də əməyin məzmunu və şəraiti, işçinin işdə inkişafı perspektivləri, iş yerinin qorunub saxlanması və s. haqqında şərtləri özünə daxil edə bilir
- Əmək bazarına çıxan işçilər öz bacarıqları, ixtisas və peşə xüsusiyyətləri, tələbatları və zövqləri, onların yerinə yetirəcəyi işlər isə ixtisasın dərəcəsi və iş şəraitinə görə bir-birindən fərqlənirlər
- İş qüvvəsinin alıcısı və satıcısı arasındakı sövdələşmələr hər iki tərəf üçün müəyyən faydalılığa malikdir


MUHASIBAT.AZ





MUHASIBAT.AZ





MUHASIBAT.AZ

## RƏQABƏTLİ ƏMƏK BAZARININ ƏSAS CƏHƏTLƏRİ

- Əməyə tələbin çox saylı firmalar tərəfindən irəli sürülməsi
- İş qüvvəsinin yüksək mobilliyi (hərəkətliliyi)
- Əmək bazarına dövlətin və həmkarlar ittifaqlarının təsirinin olmaması
- Əmək bazarına daxil olmaq və onu tərk etmək haqqında sahibkarların və işçilərin öz qərarlarında sərbəst olmaları
- Sahibkarların və işçilərin əmək bazarındakı vəziyyət haqqında məlumata malik olmaları

- Əmək təklifinin çox saylı insanlar tərəfindən irəli sürülməsi
- Əmək bazarının iştirakçılarının əməyin ödənilməsinə təsirlərinin qeyri-mümkünlüyü
- Nominal əmək haqqının dəyişkənliyi
- Eyni peşəyə, ixtisasa malik əməyin təklif edilməsi
- Sahibkarların və işçilərin iqtisadi maraqlarının əmək bazarı vasitəsilə təmin edilməsi
- Əmək haqqında baş verən meyllərin əmək bazarında tələb və təklif arasında tarazlıq vəziyyətinə gətirib çıxarması


MUHASIBAT.AZ






MUHASIBAT.AZ






MUHASIBAT.AZ

**ƏMƏK BAZARININ TƏNZİMLƏNMƏSİNİN FİLİPS MODELİ (ingilis iqtisadçısı) (şəkil. 1) .**

Məşqulluq səviyyəsi ilə məhsulun qiyməti arasında əlaqə

Alternativlər

Yüksək məşqulluq şəraitində qiymətlərin yüksək səviyyəsi

Yüksək işsizlik şəraitində qiymətlərin aşağı səviyyəsi

Şəkil 1.




Burada:

L- məşqulluğun səviyyəsi

P- məhsulların qiyməti



MUHASIBAT.AZ


ƏMƏK BAZARININ TƏNZİMLƏNMƏSİ SUBYEKTLƏRİ
Dövlət
İnzibati üsullar
Dövlət bölməsində iş yerlərinin sayının artırılması
Sosial təminat, əmək münasibətləri, miqrasiya və s. haqqında qanunvercilik sənədlərinin qəbulu və tətbiqi
Təhsil sferasında işçilərin hazırlığı və ixtisaslarının artırılması proqramlarının tətbiqi
Digərləri
İqtisadi üsullar
Vergi pul-kredit,amiortitasiya və s. siyasətilərindən istifadə
Həmkarlar ittifaqları
Kollektiv müqavilələr
İş gününün uzunluğu haqqında razılaşmalar
Peşə hazırlığı üzrə şagirdlik müddətinin uzadılması haqqında razılaşmalar
Əmək haqqının yüksək dərəcələrinin müəyyənləşdirilməsi
Digərləri
Korporasiyalar
Firmaya təhsil sferasından müraciət edənlərdən, reklam elanlarından, isə düzəltmənin dövlət və xüsusi qurumlarından işçilərin işə qəbul edilməsi
Əmək haqqının işə görə, vaxta muzd, çevik formalarının tətbiqi, tarif sistemi, işçinin ixtisası və s. nəzərə alınmaqla əmək haqqının müəyyənləşdirilməsi
İşçilərin stimullaşdırılması, əmək haqqının yeni sistemlərini tətbiq etməklə işçilərin həvəsləndirilməsi
Digərləri






MUHASIBAT.AZ

## ƏMƏK HAQQININ MƏZMUNU HAQQINDA MÜXTƏLİF BAXIŞLAR

- Əmək haqqı- əməyin qiymətidir
- Əmək haqqı- əməyə görə mükafatdır
- Əmək haqqı- iş qüvvəsi əmtəəsinin dəyərinin pulla  ifadəsidir
- Əmək haqqı- iş qüvvəsinin təkrar istehsalı üçün zəruri olan həyat nemətlərinin dəyərinin pulla ifadəsidir
- Əmək haqqı- vaxt vahidi ərzində əmək xidmətlərinə görə muzdlu fəhlənin əldə etdiyi haqdır
- Əmək haqqı- işçinin əməyinin kəmiyyət və keyfiyyətinə görə ona ödənilən puldur
- Əmək haqqı- muzdlu fəhlənin əməyindən istifadəyə görə ödənilən haqdır



MUHASIBAT.AZ

## ƏMƏK HAQQININ MARKSİST VƏ NEOKLASSİK NƏZƏRİYYƏLƏRİ

### Marksist nəzəriyyə

- Əmək haqqı əməyə görə deyil, əmək qabiliyyətinə görə ödənilir
- Əməyin dəyəri yoxdur, əmək dəyərin yalnız mənbəyidir
- Əmək haqqı bütün istehsal edilən məhsulun deyil, iş qüvvəsinin dəyərini ödəyən zəruri məhsulun dəyərinin ödənməsidir
- Əmək haqqı iş qüvvəsi dəyərinin qiymətidir

### Neoklassik nəzəriyyə

- Əmək haqqı əməyin qiymətidir
- Tələb və təklifin bərabərliyi şəraitində əmək haqqının tarazlı səviyyəsi təmin edilir


ƏMƏK
HAQQININ FUNKSİYALARI
İş qüvvəsinin təkrar istehsalı
İşçinin maddi rifahının yüksəldilməsi
Əməyin nəticələrinə işçilərin həvəsləndirilməsi
Ağır, zərərli, cəlbedici olmayan işlərdə çalışmağa görə kompensasiya
Məhsulun və xidmətlərin qiymətlərini formalaşdıran əsas amillərdən biri kimi çıxış etməsi
İşçinin ixtisas səviyyəsinin və əməyinin keyfiyyətinin artırılması


ƏMƏK HAQQININ
FORMA VƏ SİSTEMLƏRİ
Formaları
Sistemləri
İşəmuzd
Vaxtamuzd
Sadə işəmuzd
Mükafatlı işə -
muzd
Reqressiv işəmuzd
Akkord
Sadə vaxtamuzd
Mükafatlı
vaxtamuzd
Mənfəətdə
iştirak etmək
İqtisadi maraqların
əlaqələndirilməsi
İnsani münasibətlərin
ahəngdarlaşdırılması
Əməyin səmərəli ödənməsi:
əmək haqqının əsas hissəsinə
nisbətən onun əlavə hissəsinin
üstün artım sürəti
Digərləri


ƏMƏK HAQQININ SƏVİYYƏLƏRİ
Nominal əmək haqqı
Real əmək haqqı
İşçinin öz əməyinə görə aldığı pul vəsaiti
Həyat nemətlərinin kəmiyyətində ifadə olunan nominal pul vəsaitləri (nominal əmək haqqı)
Formalaşdırıcı amillər
Formalaşdırıcı amillər
İş qüvvəsinin dəyər kəmiyyəti
İşçinin yaşayış yeri
İş qüvvəsi ilə bağlı tələb və təklifin səviyyəsi
İşçinin ixtisas dərəcəsi
İşçinin istehsal etdiyi məhsul və xidmətlərin bazar qiymətləri
İşçinin riskə meyllilik dərəcəsi
Əmək haqqında irqi, milli və cinsi ayrıseçkilik
Məhsul və xidmətlərin qiyməti
Vergilərin və digər icbari ödənişlərin səviyyəsi

**ƏMƏK HAQQININ FORMALAŞMASINDA GƏLİRİN VƏ ƏVƏZETMƏNİN SƏMƏRƏLİLİKLƏRİ (Şəkil.2).**





MUHASIBAT.AZ




Şəkil 2.

Ayrıca götürülmüş insanın əmək təklifi






MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## 16. KAPİTAL BAZARI. KAPİTAL NƏZƏRİYYƏSİ. FƏRDİ KAPİTALIN TƏKRAR İSTEHSALI

**KAPİTAL ANLAYIŞI HAQQINDA BAXIŞLAR**

- Kapital – daha çox iqtisadi sərvətlər əldə etmək üçün yaradılan və istifadə edilən hər hansı bir resursdur
- Kapital –öz mülkiyyətçisinə müəyyən formada gəlir gətirən hər hansı bir sərvətdir (qabiliyyətdir);
- Kapital –özü –özünə artan dəyərdir;
- Kapital –izafi dəyər gətirən dəyərdir;
- Kapital –müəyyən tarixi ictimai iqtisadi formasiyaya xas olan ictimai istehsal münasibətləridir;
- Kapital –hərəkətdir, özünə müxtəlif mərhələləri daxil edən dövrandır, təkrar istehsal prosesidir;
- Kapital –uzun müddətli istifadə üçün nəzərdə tutulmuş resusrdur;


MUHASIBAT.AZ


KAPİTAL BAZARININ FORMALARI
Fiziki kapital bazarı
İnsan kapitalı bazarı
Maliyyə kapitalı bazarı
İstehsal fondları bazarı
Muzdlu işçilər bazarı
Sahibkarlıq qabiliyyətləri bazarı
Əsas istehsal fondları bazarı
Dövriyyə istehsal fondları bazarı
Qiymətli kağızlar bazarı
Borc kapitalı bazarı
Uzun müddətli istifadə resursları
Kapitalın hərəkəti


KAPİTALIN MƏZMUNU HAQQINDA MÜXTƏLİF NƏZƏRİ YANAŞMALAR
Merkantilizm
Fiziokratizm
Klassik yanaşma
Marksist yanaşma
Müasir yanaşma
Kapital- qiymətli metallardır: qızıl və gümüşdür
Kapital- kənd təsərrüfatı istehsalı üçün əsas amil olan torpaqdır
Kapital- məhsul istehsalı üçün istehsal amilləridir
Kapital- özü-özünə artan, izafi dəyər gətirən dəyərdir
Öz mülkiyyətçisinə müəyyən formada gəlir gətirən resursdur

## KAPİTALIN TARİXİ İLKİN FORMALARI VƏ ONLARIN TƏKAMÜLÜ

- Tacir kapitalı
  - Ticarət kapitalı
    - Ticarət mənfəəti
- Sənətkar kapitalı
  - Sənaye kapitalı
    - Sahibkar mənfəəti
- Sələm kapitalı
  - Borc kapitalı
    - Borc faizi

## KAPİTALIN XÜSUSİYYƏTLƏRİ

- Təkrar istehsal qabiliyyətinə malik olması
- Vaxt, zaman amilindən asılılığı
- Uzun müddətli istifadə resursu olması
- Yalnız istifadə edildikdə gəlir mənbəyinə (faizə, mənfəətə, rentaya və s.) çevrilə bilməsi
- Maddi - əşya (fiziki) və insan resursları formalarında çıxış etməsi
- Formalaşdırılması, istifadəsi və inkişafı üçün investisiyaların zəruriliyi



MUHASIBAT.AZ

## KAPİTAL HAQQINDA MARKSİST NƏZƏRİYYƏNİN MƏZMUNU

KAPİTAL – muzdlu fəhlələrin istismarı yolu ilə izafi dəyər gətirən dəyərdir

Sabit kapital: istehsal vasitələrinin alınmasına avans edilən, istehsal prosesində öz dəyər kəmiyyətini sabit saxlayan kapital

Dəyişən kapital: iş qüvvəsinin alınmasına avans edilən, istehsal prosesində öz dəyərindən artıq dəyər yaradan kapital

Kapitala görə gəlir (kapitalın qiyməti)

Mənfəət norması

$M^1 = \frac{M}{K}$; X 100%

Burada:

$M^1$ - mənfəət norması;

M-mənfəətin həcmi;

K-avans edilən sabit və dəyişən kapitalların dəyərlərinin cəmi.



MUHASIBAT.AZ

**KAPİTAL HAQQINDA MÜASİR NƏZƏRİYYƏNİN MƏZMUNU**

Kapital – mülkiyyətçisinə hər hansı bir formada uzun müddət ərzində gəlir gətirən iqtisadi resursdur

İstehsal vasitələri: əmtəə kapitalı

İnsan kapitalı: xüsusi biliklər, peşə vərdişləri, istehsal təcrübəsi və s.

Vaxt, zaman-kapital forması kimi: gələcəkdə yüksək gəlir əldə etmək üçün hazırki zamanda asüdə vaxtın iş vaxtı ilə əvəz edilməsi

Pul kapitalı – universal kapital

Kapitala görə gəlir: kapitalın qiyməti

Faiz norması (dərəcəsi)

$I = \frac{R}{I}$; X 100%

Burada:

İ-faiz norması;

I-borc kapitalının həcmi;

R-borc kapitalına görə gəlirin həcmi.



MUHASIBAT.AZ






MUHASIBAT.AZ






MUHASIBAT.AZ

## KAPİTALIN DÖVRANI VƏ ONUN ÜÇ MƏRHƏLƏSİ

$P-Ə \left\langle \begin{matrix} İ_v \\ İ_q \end{matrix} \right. ...İ...Ə^1-P^1$;

Kapitalın dövranı;

1. Kapitalın dövranının I mərhələsi:

$P-Ə \left\langle \begin{matrix} İ_v \\ İ_q \end{matrix} \right.$

Pul kapıtalınını məhsuldar kapitala çevrilməsi

2. Kapitalın dövranının II mərhələsi:

$Ə \left\langle \begin{matrix} İ_v \\ İ_q \end{matrix} \right. ...İ...Ə^1$;

Məhsuldar kapitalın əmtəə kapitalına çevrilməsi

3. Kapitalın dövranının III mərhələsi:

$T^1-P^1$

Əmtəə kapitalının pul kapitalına çevrilməsi

Burada:

P-pul; $İ_v$ - istehsal vasitələri;

Ə-əmtəə; $İ_q$ – iş qüvvəsi

$Ə^1 = Ə + \Delta Ə$; $P^1 = P + \Delta P$

Kapitalın dövranı-kapitalın ardıcıl olaraq üç mərhələdən keçərək ilkin formasına qayıtması.

Kapitalın dövriyyəsi-kapitalın dövranlarının daimi təkrarlanması.



MUHASIBAT.AZ

# 17. TORPAQ BAZARI. TORPAQ RENTASI NƏZƏRİYYƏSİ.






Şəkil 1. Torpaq bazarında tarazlıq

S-torpağın təklifi (qeyri-elastik təklif)

D1,D2,D3- torpağa olan tələb

R1,R2,R3- torpaq bazarında müxtəlif tarazlıq vəziyyətləri

R - torpaq rentası



MUHASIBAT.AZ


TORPAĞIN İQTİSADİ MƏZMUNU
Təbii obyekt
İstehsal vasitəsi
Kənd təsərrüfatı torpaqları
İstehsal amili
Qeyri- kənd təsərrüfatı torpaqları
Təbii qazıntılar
Meşələr
Digərləri
Xüsusiyyətləri
İstehsal və təkrar istehsal olunmur
Kəmiyyətcə məhduddur
Keyfiyyətcə (məhsuldarlığa, yatağın xüsusiyyətinə, ərazicə yerləşməsinə və s. görə) müxtəlifdir
Məkanca hərəkətsizdir
Uzun müddətli dövrdə istifadə olunur
Digərləri






MUHASIBAT.AZ





MUHASIBAT.AZ

**KƏND TƏSƏRRÜFATINDA TƏKRAR İSTEHSALIN (İQTİSADİ QANUNLARIN VƏ TƏBİİ-BİOLOJİ SİSTEMLƏRİN QARŞILIQLI FƏALİYYƏTİ PROSESİ) XÜSUSİYYƏTLƏRİ**

- İstehsal prosesi bioloji proseslərlə və tsikllərlə sıx əlaqəlidir
- Elmi texniki tədqiqatların spesifikliyi və onların tətbiqinin konkret hədləri
- İşçi qüvvəsinin ilin ancaq müəyyən günlərinin (xüsusən bitkililikdə) fəal kənd təsərrüfatı əməyi ilə məşğul olması
- İstehsalın mövsümi xarakteri
- Əməəyin sərfi dövrü ilə nəticələrin əldə edilməsi dövrünün üst-üstə düsməməsi
- Əmək ödənməsi prosesində spesifikliyin mövcudluğu
- Məhsula qiymətin əmələ gəlməsinin spesifikliyi
- İstehsal fondlarının maddi hissəsinin (toxum,yem, mal-qara və s.) əsasən öz istehsalı hesabına formalaşdırılması
- Təkrar istehsalın fasiləsizliyini təmin etmək üçün ehtiyat fondlarının yaradılmasının zəruriliyi
- İstehsalı fondlarının strukturunun, onlardan istifadənin, dövran və dövriyyəsinin, fiziki və mənəvi bərpasının spesifikliyi



MUHASIBAT.AZ

**TORPAQ RENTASININ MƏZMUNU HAQQINDA BAXIŞLAR**

- Torpaq rentası- qeyri-elastik tələblə səciyyələnən torpaqdan və digər təbii resurslardan istifadəyə görə ödənilən haqdır
- Torpaq rentası- torpaq mülkiyyətçisinin müəyyən vaxt ərzində əldə etdiyi cari, sabit gəlirdir
- Torpaq rentası- izafi dəyərin orta mənfəətdən artıq qalan, icarədar kapitalıstlər tərəfindən torpaq mülkiyyətçisinə ödənilən haqdır
- Torpaq rentası - torpaq mülkiyyətinin iqtisadi cəhətdən reallaşdırılması formasıdır
- Torpaq rentası- muzdlu kənd təsərrüfatı fəhlələrinin və icarədar sahibkarların əməyi ilə yaradılan və torpaq mülkiyyətçisi tərəfindən mənimsənilən haqdır


MUHASIBAT.AZ






MUHASIBAT.AZ

**İCARƏ HAQQININ MƏZMUNU VƏ STRUKTURU**

- Torpaqdan istifadə üçün torpaq mülkiyyətçisinə verilən haqq
- İcarəyə verilməzdən əvvəl torpağa qoyulmuş kapitalın faizi və amortizasiyası
  - Tikililər
  - Anbarlar
  - Yollar
  - Digərləri
  - Çoxillik bitkilər
  - Suvarma sistemləri

**TORPAĞIN QİYMƏTİ: KAPİTALAŞMIŞ, YƏNİ KAPİTALA (EHTİYATA) ÇEVRİLMİŞ RENTA**

$$Z = \frac{R}{I} \times 100$$

TORPAĞIN QİYMƏTİ-elə bir pul məbləğidir ki, onu depozit şəklində banka qoyarkən faizin mövcud səviyyəsində il ərzində torpaq rentasına bərabər həcmdə illik gəlir gətirəcəkdir.

Burada

Z – torpağın qiyməti;

R – torpaq rentası;

i – bank faizinin səviyyəsi.



MUHASIBAT.AZ


AQRAR SƏNAYE KOMPLEKSİ (ASK): KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ İSTEHSALI, QORUNUB SAXLANMASI, EMALI VƏ İSTEHLAKÇIYA ÇATDIRILMASI İLƏ MƏŞĞUL OLAN İQTİSADİYYAT SAHƏLƏRİNİN MƏCMUSU
ASK-nın funksional strukturu
Kənd təsərrüfatı üçün istehsal vasitələri istehsal edən sənaye sahələri
Kənd təsərrüfatına istehsal –texniki xarakterli xidmətlər göstərən sahələr
Kənd təsərrüfatı sahələri (bitkiçilik və heyvandarlıq)
Bitkiçilik
Heyvandarlıq
Kənd təsərrüfatı məhsullarının istehlakçıya çatdırılmasını təmin edən sahələr
Tədarük
Emal
Qorunub saxlanma
Nəqliyyat
Reallaşdırma
Digərləri
İnfrastruktur
Nəqliyyat təsərrüfatları
Rabitə
Məhsulun qorunub saxlanma sistemi
Maddi- texniki təchizat
Ambar və tara təsərrüfatı
Digərləri
Kənd təsərrüfatı texnikasını aqrar sferaya çatdıran nəqliyyat sahəsi

## 18. SAHİBKARLIQ FƏALİYYƏTİ: MAHİYYƏTİ VƏ FORMALARI.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu. Bakı 15 dekabr 1992-ci il.
Sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmək məsuliyyəti ilə, yaxud digər hüquqi və fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir.

**Sahibkarlığın məzmunu haqqında müxtəlif baxışlar və ictimai rəy**

- Mənfəət məqsədi ilə risk və innovasiya əsasında həyata keçirilən təsərrüfatçılıq sistemi
- Milli iqtisadiyyatın və işgüzar strukturların inkişafının strateji resursu və daxili mənbəyi
- Bazar iqtisadi sisteminin ən müəyyənedici komponenti
- İnsanlara lazım olan məhsullar istehsalı
- İş görə bilmək sistemi
- İqtisadi sistemin yeni texnika və texnologiya əsasında tərəqqisinin ana xətti
- İnsanların arzu və ehtiyaclarının ödənilməsinə yönəldilmiş, onlara lazım olan istehsal və xidmətlər sistemi


MUHASIBAT.AZ

**Sahibkarlıq haqqında iqtisadi baxışların təkamülü**

- Sahibkarlıq fəaliyyəti - kapitalist sahibkar tərəfindən məhdud iqtisadi resurslar şəraitində öz kapitalını mənfəət əldə etmək məqsədi ilə hər hansı bir sahəyə yönəldilməsidir. (Nümayəndələri: R.Kantilyon, A.Smit, V.Roşer, C.Tyurqo və başqaları).

- Sahibkarlıq - istehsalı təşkil və idarə etməklə bablı işgüzar fəaliyyətdir. Bu təlimdə kapitalist və sahibkar anlayışları bir-birindən fərqləndirilir və sahibkara menecer kimi yanaşılır, sahibkarlıq fəaliyyətinin məzmunu, onun iqtisadi funksiyası müəyyən iqtisadi keyfiyyətlərə malik olan təşəbbüskar fərdlə, yəni şəxsiyyətlə eyniləşdirilir. Həmin keyfiyyətlərə əsasən aşağıdakılar daxil edilirlər: Məqsədə doğru böyük inadkarlıq, qeyri-müəyyən vəziyyətlərdə öz üzərinə məsuliyyət götürməyə hazır olmaq; çətin situasiyalarda çaşqınlığa uğramamaq; ağıllı risqə cəhd etmək, başladığı işə inamlı olmaq və s. (Nümayəndələri: A.Marşall, L.Valras, A.Kouz, V.Druker, D.Maklelland və başqaları).

- Sahibkarlıq- risklə bağlı olan, qeyri-müəyyənlik və informasiya qıtlığı şəraitində həyata keçirilən işgüzar fəaliyyətdir. (Nümayəndələri: R.Kantilyon, Y.Tyunen, F.Nayt, R.Kouz, L.Mizes, F.Xayek və başqaları).

- Sahibkarlıq - daimi yenilikçiliklə, təşkilatı innovasiya ilə səciyyələnən, bazarda hər vaxt yeni iqtisadi şərait yaradan işgüzar fəaliyyətdir. (Nümayəndələri: Y.Şumpeter, P.Druker, Q.Şmoller və başqaları).



MUHASIBAT.AZ








MUHASIBAT.AZ






MUHASIBAT.AZ









MUHASIBAT.AZ





MUHASIBAT.AZ

Sahibkar tərəfindən biznes fəaliyyəti ilə bağlı müstəqil qəbul edilən qərarlar

- sahibkarlıq fəaliyyətinin növünü, sahəsini, istiqamətini, həyata keçirilməsi metodlarını və vasitələrini müəyyən etmək;
- məhsullar istehsalı və ya xidmətlər göstərilməsi üzrə iqtisadi fəaliyyəti həyata keçirmək;
- iqtisadi (işgüzar) fəaliyyətin maliyyələşdirilməsi subyektlərini və mənbələrini müəyyən etmək;
- məhsul göndərənləri axtarıb tapmaq və onlarla işgüzar əlaqələr yaratmaq;
- öz məhsulları üçün qiymətləri, göstərdiyi xidmətlər üçün isə tarifləri müəyyənləşdirmək;
- məhsulların və xidmətlərin istehlakçılarını, reallaşdırılması kanallarını, metodlarını və bazarlarını (yerini) müəyyən etmək;
- sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən vergilər və digər məcburi ödənişlərdən sonra qalan hissəsi üzərində sərəncam vermək;
- malik olduğu əmlakdan öz işgüzar fəaliyyətində istifadə etmək, yaxud onu icarəyə vermək haqqında müstəqil qərar çıxarmaq və s.
- sahibkarlıq fəaliyyəti zamanı muzdlu işçilərin əməyindən istifadə edildiyi halda, sahibkar tərəfindən hər biri üzrə müstəqil qərar qəbul etməyi tələb edən bu vəzifələrin dairəsi daha da genişlənərək özünə aşağıdakıları daxil edir:
  - müəssisəni işçi qüvvəsi ilə təmin edə biləcək mənbələri axtarıb tapmaq;
  - müqavilə, saziş və digər şərtlər əsasında müəssisəyə işçilər cəlb etmək və yaxud onları mövcud qanunvericiliyə uyğun olaraq işdən azad etmək;
  - işçilərin təhsili, ixtisası, bacarığı, qabiliyyəti, təşəbbüskarlığı və digər keyfiyyətləri əsasında onlar üçün əməyin ödənilməsinin forma və sistemlərini, səviyyəsini (ölkə üzrə müəyyən edilmiş minimum məbləğdən az olmayaraq) müəyyən etmək və s.

**Mənbə: «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu**



MUHASIBAT.AZ

**Sahibkarın vəzifələri**

- Qüvvədə olan qanunvericilikdən və bağladığı müqavilələrdən irəli gələn bütün vəzifələri yerinə yetirmək;
- İşçinin əmək haqqını ölkə qanunvericiliyi ilə müəyyən olunmuş minimum məbləğindən az olmayan səviyyədə ödəmək;
- Qanunvericilikdə müəyyən edilmiş vergiləri, dövlət sığorta, sosial müdafiə və digər fondlara ayırmaları ödəmək;
- Qüvvədə olan normativ aktları rəhbər tutaraq ekoloji təhlükəsizliyin, əməyin mühafizəsinin, təhlükəsizlik texnikasının, istehsal gigiyenasının və sanitariyanın təmin edilməsi, arxitektura abidələrinin və digər tarixi abidələrin mühafizəsi sahəsində tədbirlər görmək;
- İşçilərə qüvvədə olan qanunvericiliyə və müqavilələrə uyğun əmək şəraiti yaratmaq
- Antiinhisar qanunvericiliyə riayət etmək, haqsız rəqabət metodlarından istifadə olunmasına yol verməmək;
- Öz fəaliyyəti haqqında dövlət, statistika və maliyyə orqanlarına müəyyən edilmiş formada hesabatlar vermək.

**Mənbə: «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu**



MUHASIBAT.AZ








MUHASIBAT.AZ



Müxtəlif meyarlar baxımından sahibkarlıq formaları
Mülkiyyət
Fəaliyyətin həcmi
Fəaliyyət sahəsi
Xüsusi (fərdi)
KOLLEKTİV
İctimai (dövlət)
BİRGƏ
İri
Orta
Kiçik
Sosial sahələr
Ticarət
Rabitə
Tikinti
Nəqliyyat
Kənd təsərrüfatı
Sənaye
Fəaliyyətin xarakteri
Ərazi tutumu səviyyəsi
Xidmətlər: sosial, maliyyə, bilik, sığorta və s.
Kommersiya
İstehsal
Yerli (bələdiyyə)
Region
Beynəlxalq

## 19. MİKROİQTİSADİ TƏNZİMLƏMƏ MEXANİZMİ





MUHASIBAT.AZ





MUHASIBAT.AZ





MUHASIBAT.AZ


MENECMENTİN MƏQSƏDLƏRİ, İDARƏETMƏ OBYEKTLƏRİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ
Məqsədlər
Firmanın yüksək səmərəli fəaliyyətinin təmin edilməsi
Məhsulun keyfiyyətinin yaxşılaşdırılması
Məhsul istehsalının, genişləndirilməsi və çeşidinin yaxşılaşdırılması
Mənfəətin və gəlirin artırılması
İnkişaf mərhələləri
İdarəetmənin təşkilati strukturu
Strateji planlaşdırma
Strateji idarəetmə
İdarəetmə obyektləri
İstehsalın maddi əşya ünsürləri
İnformasiya (proqramlar, sənədlər və s.)
İnsanlar

**MENECMENTİN İQTİSADİ VƏ SOSİAL PRİNSİPLƏRİ**

- «İstehsal münasibətlərinin humanistləşdirilməsi»: hər bir işçinin imkanlarının nəzərə alınması
- Fəal şəkildə yeni ideyalar axtarışı və bu ideyaların qiymətləndirilməsi sisteminin formalaşdırılması
- «İşgüzar əməkdaşlıq»: firma daxili əlaqələrin təmin edilməsi
- Firmanın son nəticələrindən asılı olaraq işçilərin maddi həvəsləndirilməsi
- İqtisadi cəhətdən qeyri-mərkəzləşdirmə: firmanın hər bir həlqəsi tərəfindən sərbəst iqtisadi qərarların qəbul edilməsi
- İşçilərin səmərəli iqtisadi və mənəvi motivasiyası sisteminin formalaşdırılması
- Firmanın ümumi məqsədi ilə müxtəlif işçi qruplarının mənafelərinin əlaqələndirilməsi
- Digərləri


MUHASIBAT.AZ


MENECMENTİN FUNKSİYALARI
Teylora görə «Elm idarəetmənin prinsipləri» əsəri (1911-ci il)
Məqsədin seçilməsi
Məqsədə çatmaq vasitələrinin seçilməsi
Vasitələrin hazırlanması
Nəticələrə nəzarət
Fayola görə «Ümumi və sənaye idarə etməsi» (1916 -ci il)
İrəlicədən görmək
Təşkil etmək
Sərəncam vermək
Razılaşdırmaq
Nəzarət etmək
Müasir dövrdə
Planlaşdırma
Proqnozlaşdırma
Məqsədyönlülük
Təşkiletmə
Nəzarətetmə
Həvəsləndirmə
Əlaqələndirmə
Tənzimləmə
Firmanın fəaliyyətinin uçot və təhlilini aparmaq


FİRMANIN STRATEGİYASI: FİRMA QARŞISINDA UZUNMÜDDƏTLİ DÖVRDƏ DAYANAN MƏQSƏDLƏRƏ ÇATMAQ ÜÇÜN İSTİFADƏ EDİLƏN SİYASƏT
Firmanın strategiyasının formaları
Firmanın strategiyasının məqsədləri
Firmaya yüksək mənfəət (rentabellik) təmin edən uzun müddətli üstünlüklərin əldə edilməsi
İqtisadi artımın (inkişafı) təmin edilməsi
Bazarda ümumi payının artırılması
İqtisadi stabilliyin təmin edilməsi
Digərləri
İşgüzar strategiya
Qarşıya qoyulmuş məqsədə çatmağın ümumiləşmiş fəaliyyət modeli
Hərəkət istiqamətinin seçilməsi
Xarici mühit, müxtəlif bazarların xüsusiyyətləri, rəqiblərin fəaliyyəti və s. haqqında informasiyanın toplanması
Fəaliyyət prosesində çeviklik göstərməsi
Digərləri
Portfel strategiyası
İnvestisiyalar yönəldilməli təsərrüfat obyektlərinin seçilməsi
Yeni sahələrdə müəssisələrin yaradılması
Mövcud müəssisələrin (bölmələrin) möhkəmləndirilməsi
Lazımsız fəaliyyət sahələrinin tədricən tərk edilməsi
Digərləri
Funksional strategiya
Kiçik müəssisələrin strategiyası
İxtisaslaşmış kiçik və orta müəssisələrin strategiyası
İri müəssisələrin strategiyası
Yeni ictimai tələbatların axtarıb tapılması və öz fəaliyyətini ona uyğunlaşdır-ması
Məhdud tələblə səciyyələnən məhsul istehsalı üzrə qərarların qəbul edilməsi
İqtisadiyyatın tipik və geniş yayılmış tələbatlarının öz fəaliyyətində nəzərə alınması


MARKETİNQ – KONKRET BAZARIN TƏDQİQİNƏ VƏ PROQNOZLAŞDIRILMASINA YÖNƏLMİŞ MƏHSUL İSTEHSALI VƏ SATIŞININI KOMPLEKS SİSTEMİ
Marketinqin funksiyaları
Bazarın öyrənliməsi, məhsulun hazırlanması və onun bazarda satılmasının təşkili də daxil olmaqla marketinq konsepsiyasının işlənib hazırlanması və reallaşdırılması
Mövcud tələbatların ödənməsinə istehsalın yönəldilməsi
Yeni tələbin formalaşdırılması və stimullaşdırılması
Marketinqin reallaşma şərtləri
Bol məhsul bazarlarının (məhsul bolluğunun) olması
Bazarların və qiymətlərin çevikliyi
Əmtəə istehsalçılarının iqtisadi sərbəstliyi
İnformasiyanın sərbəst əldə edilməsi sisteminin mövcudluğu
Marketinq fəaliyyətini həyata keçirə bilən mütəxəssislərin olması
Marketinqin reallaşdırılması amilləri (şərtləri)
Firma tərəfindən nəzarət edilə bilən amillər
Məhsulun qiyməti
Texnologiyanın seçilməsi
İşgüzar əməkdaşların müəyyənləşdirilməsi
Digərləri
Firma tərəfindən nəzarət edilə bilməyən amillər
Alıcıların davranışları
Hökümətin iqtisadi qərarları
Rəqabət şəraiti
Milli valyutanın dəyərinin dəyişməsi
Digərləri


MARKETİNQ
FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ
Bazarın kompleks öyrənilməsi
Tələbin öyrənilməsi
Məhsulun öyrənilməsi
Rəqabət şəraitinin öyrənilməsi
Məhsul satışı formaları və metodlarının təhlili
Bazarın seqmentləşdirilməsi
Amilləri
Coğrafi amillər
Demoqrafik amillər
İqtisadi və sosial amillər
Sosial-psixoloji amillər
Məhsulun planlaşdırılması
Meyarları
Satış həcminin dinamikası
Gəlirlərin və xərclərin müəyyənləşdirilməsi
Satış həcminin sabitləşdirilməsi
Mənfəətin həcmi
Məhsulun həyat tsiklərinin vaxtında qiymətləndirilməsi
Məhsulun bazara daxil edilməsi
Satısın artması
Satışın sabitləşməsi
Satışın aşağı düşməsi
Məhsulun bazara doğru hərəkətinin və satışının təmin edilməsi
Birbaşa kanallar (firma mağazaları, məhsulun bilavasitə alıcıya çatdırılması və s.)
Dolayı (topdan və pərakəndə satış)
Məhsulun reklamı
Məhsulla bağlı qiymətin əmələ gəlməsi
Formalaşdırıcı amillər
Bazarın konkret şəraiti (inhisarlaşma səviyyəsi, tələbin elastikliyi və s.)
Satılan məhsulun xarakteri (yenilik səviyyəsi, qarşılıqlı əvəzedici və ya tamamlayıcı olması və s.)
Firmanın sahədəki mövqeyi (maliyyə vəziyyəti, digər istehsalçılarla əlaqələri və s. )
İstehsal məsrəfləri
Coğrafi amilər (məs.nəqliyyat xərcləri)
Digərləri

# ƏDƏBİYYAT


1. Ə.M.Abbasov; M.M.Bağırov; D.A.Bağırov; S.H.Punhani. İzahlı iqtisadi terminlər lüğəti. I və II cildlər. Bakı.2005.
2. Ə.İ. Bayramov. İnhizarizm. Bakı.2002.
3. Biznesin əsasları. Dərslik A.B.Abbasovun redaktəsi ilə. Bakı.2005.
4. T.Ə.Hüseynov. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı.2005.
5. İqtisadi nəzəriyyə. Dərslik. T. S. Vəliyevin, Ə. P. Babayevin və M. X. Meybullayevin redaktəsi ilə. Bakı.1999.
6. İqtisadi nəzəriyyə. Dərslik T.S.Vəliyevin və Ş.S.Qafarovun redaktəsi ilə. Bakı.2004.
7. **Q.N.Manafov. Sahibkarlığın nəzəri və praktiki məsələləri. B.1997.**
8. Ş.S. Qafarov. Müasir iqtisadi sistem və qloballaşma. Bakı.2005.
9. Ə.C. Qasımov.Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi Bakı.2005.
10. M.Rəhimov. Azərbaycan Respublikasının iqtisadi inkişafını tənzimləyən qanunlar. Bakı. 1996.

11\. **T.S.Vəliyev. İnfrastrukturlar: mahiyyəti, təsnifatı və əhəmiyyəti. B.2000.**

11\. Е.Ф.Борисов. Экономическая теория. Вопросы-ответы. Ключевые понятия. Логика курса. М.2001.

12\. Л.Ф.Киндрук. И.А.Кузнецова. И.М. Зборина. Экономическая теория. Основы микроэкономики. Учебно-методический комплекс (схемы, задания, тесты) Минск.2006.

13\. Г.Я. Кожекин. С.Г.Мисербиева Маркетинг предприятия. Учебное пособие. Минск 2004.

14\. Т.А.Кулиев. Регулируемая рыночная экономика. Баку.1999.

15\. Л.Б. Лемешевская. Экономическая теория. Тесты, ситуации, задачи. Учебное пособие. Минск.2005.

16\. Р.М. Нуреев. Курс микроэкономики. Учебник. М.2006.

17\. Р.Пиндайк; Д. Рубинфельд. Микроэкономика. М.2001.

18\. Практикум по основам экономической теории. Учебное пособие. Под.ред.С.И.Иванова. М.1999.


MUHASIBAT.AZ

19. А.Г.Самедов. Управление рынком. Теория и практика. Москва-Баку.2005.
20. А. Д. Смирнов, Б.Ф.Максимова и.др. Рыночная экономика. Учебник в 3 т. т 2. ч 2. Основы бизнеса. М.1992.
21.Ю.Б.Тарануха. Микроэкономика (в структурно-логических схемах) М.2002.
22. Ю.Б. Тарануха. Д.Н.Земляков. Микроэкономика. М.2001.
23. Р.Франк. Микроэкономика и поведение. М.2000.
24. К.А.Шахбазов. Менеджмент. Баку.2006.
25.Экономика в вопросах и ответах. Учебное пособие. Под. ред. И.П.Николаевой. М.2004.
26. Г.Я. Кожекин. С.Г.Мисербиева Маркетинг предприятия. Учебное пособие. Минск 2004.


MUHASIBAT.AZ

## M Ü N D Ə R İ C A T


Müqəddimə 3
1. İqtisadi nəzəriyyənin predmeti və metodu. 5
2. İstehsal nəzəriyyəsi. İctimai istehsal-cəmiyyətin inkişafının əsasıdır. 17
3. Mülkiyyət münasibətləri. 29
4. İqtisadi sistemlər. 38
5. Mübadilə nəzəriyyəsi 48
6. Bazar və bazar iqtisadiyyatı 56
7. Bazar iqtisadiyyatının modelləri. 65
8. Bazar infrastrukturu: mahiyyəti və funksiyaları. 78
9. Tələb və təklif nəzəriyyəsi. Bazar tarazlığı. 88
10. Qiymət və onun əmələgəlmə mexanizmi. 111
11. Rəqabət və inhisar nəzəriyyəsi. 118
12. İstehlakçı davranışı nəzəriyyəsi. 137
13. İstehsal xərcləri və mənfəət nəzəriyyəsi. 150
14. Firma nəzəriyyəsi. Firma və onun fəaliyyət mexanizmi. 165
15. İstehsal amilləri bazarı: Əmək bazarı. Əmək haqqı nəzəriyyəsi. 178
16. Kapital bazarı. Kapital nəzəriyyəsi. Fərdi kapitalın təkrar istehsalı 202
17. Torpaq bazarı. Torpaq rentası nəzəriyyəsi 211
18. Sahibkarlıq fəaliyyəti: mahiyyəti və formaları. 221
19. Mikroiqtisadi tənzimlənmə mexanizmi 232

**20. Ədəbiyyat 240**




MUHASIBAT.AZ

MUHASIBAT.AZ